# GÜNDOĞAR

QƏZET 1931 - Cİ İLDƏN ÇAP EDİLİR NEFTÇALA RAYON QƏZETİ 28 YANVAR 2025 -Cİ İL, №1(68075)


## MİLLİ QÜRUR, RƏŞADƏT TARİXİMİZ -- 20 YANVAR FACİƏSİNİN 35 - Cİ İLDÖNÜMÜ EHTİRAMLA YAD EDİLDİ



**Qanlı 20 Yanvar faciəsindən 35 il keçir. Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olan 20 Yanvar hadisələri milli müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. Keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdir.**

3

**Ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın rəhbərliyinə qayıtdıqdan sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.**



## Yanvarın 23 - də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

**Dövlətimizin başçısı Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin otelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı verib. O, bu dəhşətli faciədə həlak olanlara Uca Allahdan rəhmət diləyib və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıb.**

**Prezident İlham Əliyev yanvarın 21-də faciə ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə başsağlığı məktubu göndərdiyini də qeyd edib.**

**Türkiyə Prezidenti diqqətə və başsağlığına görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Türkiyə və Azərbaycan daim bir-birilərinin yanındadırlar, bundan sonra da həmişə belə olacaqdır.**

## Azərbaycan Dünya İqtisadi Forumunda

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 20- də İsveçrə Konfederasiyasına səfərə gəlib. Prezident İlham Əliyev yanvarın 20 - də Davosda Çinin CGTN(China Global Television Network) telekanalına müsahibə verib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20 - də Davosda "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer ilə görüşüb. Yanvarın 21-də "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri Henrik Poulsen və Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani ilə, DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə, Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs ilə, "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə, yanvar ayının 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşı tərəfin müraciəti əsasında Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə, Ukrayna Prezidenti Volodimir Zelenski ilə, ABŞ-nın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüş keçirmişdir.**

4

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

28 dekabr 2024, 13:17

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 28 dekabr 2024-cü il**

## 29 YANVAR 2025 - Cİ İLDƏ KEÇİRİLƏCƏK BƏLƏDİYYƏ SEÇKİLƏRİNDƏ FƏAL İŞTİRAK EDƏK

**2025-ci ilin 29 yanvar tarixində keçiriləcək Bələdiyyə seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra keçiriləcək ilk bələdiyyə seçkiləridir. Biz bu seçkilərə qalib dövlət, qalib xalq kimi gedirik. İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda da bələdiyyə seçkiləri keçiriləcəkdir.**

**29 yanvar seçkiləri "Konstitusiya və Suverenlik İli"ndə keçirilir. Bu gün qalib Azərbaycan dövləti xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni geosiyasi reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir. Eyni zamanda, dövlətimiz Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir. Bələdiyyələrin fəaliyyəti də cəmiyyətin və ölkə idarəçiliyinin müasir dövrün tələblərinə və çağırışlarına adekvat olaraq təkmilləşdirilməsində önəmli istiqamətlərdən biri sayılır. Bələdiyyələrin indiyə qədərki fəaliyyəti ilə gələcək fəaliyyətləri arasında ciddi fərqlərin olacağına böyük ümidlər vardır. Biz Yeni Azərbaycan Partiyası başda olmaqla əksər partiyaların təmsilçilərinin də bu seçkidə namizədliklərini irəli sürdüyünü müşahidə edirik.Təbliğat işi rayonumuzda da geniş şəkildə həyata keçirilmişdir. İnanırıq ki, cəmiyyətimizin seçkilərdə fəal olması, gələcək bələdiyyələrin fəaliyyətində də sözün əsl mənasında dönüş yaradacaqdır. Bütün namizədlərə uğurlar, həmvətənlərimizə fəallıq arzu edirik. Hər birimiz Vətən üçün çalışaq, həmrəyliyimizi qoruyaq, seçkilərdə fəal iştirak edək.**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvar ayının 7- də yerli televiziya kanallarına verdiyi müsahibəsindən

"Gündoğar" müsahibəni ixtisarla təqdim edərək oxucuların diqqətinə çatdırır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev jurnalistlərin suallarını ətraflı cavablandırmışdır.

Azərbaycan Televiziyasından Vüsal Mətləbin "2024-cü ilin sosial-iqtisadi yekunlarının göstəriciləri barədə nə demək olar və bu göstəricilər 2025-ci il üçün hansı proqnozlara əsas yaradır?" sualını cənab Prezident belə cavablandırmışdır:

"Keçən il iqtisadi inkişaf baxımından yenə də uğurlu il olmuşdur. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir. Hesab edirəm ki, inkişaf templəri, bugünkü dünyanın mənzərəsinə nəzər salsaq, müsbət sayıla bilər. Yəni, ümumi daxili məhsul 4 faizdən çox artmışdır. Əslində, bizim üçün əsas göstərici qeyri-neft sektorunun inkişafıdır. Çünki bildiyiniz kimi, biz son vaxtlar neft hasilatında tənəzzüllə üzləşmişdik və hesab edirəm ki, aparılan danışıqlar, göstərilən səylər nəticəsində artıq bu tənəzzülə son qoyulacaq və neft hasilatı sabit qalacaq. Beləliklə, neft hasilatının azalması bundan sonra ümumi daxili məhsula mənfi təsir göstərməyəcək. Ona görə biz ümumi iqtisadi göstəricilərə nəzər saldıqda, ilk növbədə, qeyri-neft sektorunun parametrlərini nəzərə alırdıq. Burada da inkişaf daha uğurludur, 6 faizdən çox artıbdır. Nəzərə alsaq ki, artıq uzun illər bizim iqtisadi inkişafla bağlı əsas hədəflərimizdən biri sənaye istehsalının artırılmasıdır, qeyri-neft sənaye sektorunda artım daha da yüksəkdir. Bu, 7 faizdən çoxdur. Yəni, əgər dünya iqtisadiyyatının artım templərinə və inkişaf etmiş ölkələrin inkişafına, yaxud da ki, tənəzzülə nəzər salsaq, görərik ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Əlbəttə ki, bunun təməlində düşünülmüş siyasət dayanır.

Bu göstəricilər, sadəcə olaraq, keçən ilin məhsulu deyil. Uzun illər aparılan iqtisadi islahatlar, şəffaflıq, inhisarçılığa qarşı mübarizə, investisiyaların cəlb edilməsi, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində biz beynəlxalq aparıcı reytinq agentliklərinin Azərbaycana olan münasibətində müsbət dəyişiklik görürük. Yəni, onlar da reallıqları inkar edə bilməzlər. Halbuki mən hesab edirəm ki, bizim beynəlxalq reytinqimiz indikindən daha yüksək səviyyəyə layiqdir və müəyyən səbəblər üzündən hələ ki, aparıcı reytinq agentlikləri daha da təvazökar yanaşmanı sərgiləyirlər. Yəni, bütün bunlar onu deməyə əsas verir ki, biz iqtisadi sahədə dayanıqlı inkişafa nail ola bilmişik və əminəm ki, bu il və gələn illərdə bu dinamika saxlanılacaq.

O ki qaldı maliyyə vəziyyətimizə, biz keçən il maliyyə vəziyyətimizi böyük dərəcədə yaxşılaşdıra, öz rezervlərimizi artıra bilmişik. Baxmayaraq ki, keçən ilin büdcəsi rekord səviyyədə idi və bir çox sosial proqramlar icra edildi, o cümlədən Qarabağın bərpası ilə bağlı böyük vəsait səfərbər olundu. Buna baxmayaraq, biz optimallaşmanı elə təşkil etmişik ki, valyuta ehtiyatlarımız daha da artdı. İl



ərzində valyuta ehtiyatlarımız təqribən 5 milyard dollardan çox artıb və bu gün bu rəqəm 72 milyard dollara bərabərdir. Əhalisi 10 milyon olan ölkə üçün bu, çox böyük göstəricidir. Çünki hər şey müqayisədə ölçülür. Dünya ölkələrinin valyuta ehtiyatlarının hesablanması, əlbəttə ki, adambaşına düşən ehtiyatlara söykənməlidir və bu göstəriciyə görə Azərbaycan dünyada aparıcı ölkələrin sırasındadır.

İkinci vacib göstərici ümumi daxili məhsulun xarici borca olan nisbətidir. Hesab edirəm ki, biz burada da dünyada liderlər sırasındayıq. Çünki bizim xarici borcumuz ümumi daxili məhsulumuzun cəmi 7.2 faizini təşkil edir. Müqayisə üçün deyə bilərəm ki, əksər inkişaf etmiş ölkələrdə bu, 100 faizdən də çoxdur və 7.2 faiz səviyyə doğrudan da çox böyük nəticədir. Məhz buna görə, mən hesab edirəm ki, beynəlxalq reytinq agentlikləri Azərbaycana daha ədalətli mövqe nümayiş etdirməlidirlər. Əlbəttə ki, valyuta ehtiyatlarının xarici borcla müqayisəsi də önəmli amillərdən biridir. Burada da bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 14 dəfə üstələyir. Yəni, əgər kimsə mənə ikinci belə ölkə, - söhbət inkişaf etmiş ölkələrdən gedir, - göstərsə, əgər kimsə bu rəqəmlər toplusunu təqdim edə bilsə, mən əlbəttə ki, minnətdar ola bilərəm. Amma inkişaf etmiş ölkələr sırasında belə analoqlar yoxdur. Yəni, bütün bunlar deməyə əsas verir ki, iqtisadiyyat dayanıqlıdır, öz resurslarına söykənir, heç bir xarici maliyyələşməyə ehtiyac yoxdur. Halbuki biz indi xarici borcumuzu bir qədər artırmaq üçün də səylər göstərməyə başlamışıq. Müəyyən dərəcədə arta bilər, çünki bu, əhəmiyyətli dərəcədə azalıbdır. Mən hələ beş il bundan əvvəl, bizim xarici borcumuz ümumi daxili məhsulun təqribən 20 faizini, ona yaxın faizi təşkil edəndə qarşıya hədəf qoymuşdum ki, biz bunu 10 faizə endirməliyik. İndi 7.2 faizdir, yəni, xarici maliyyələşmə bizə nə verəcək? Nəzərə alsaq ki, ölkə qarşısında duran bir çox ciddi investisiya tələb edən məsələ var, bu, büdcə yükünü bir qədər azaldacaq. Ona görə, nəzərə alsaq ki, bizim xarici borcumuzun ödəmə qrafiki də təsbit edilib və bu gün 5.2 milyard dollara bərabər olan xarici borcumuz illər keçdikcə daha da azalacaq. Ona görə əlavə maliyyə resurslarının cəlb edilməsi məqsədəuyğun sayıla bilər və artıq hökumət bu istiqamətdə fəaliyyətə başlayıb. Mənim tərəfimdən müvafiq göstərişlər verilib.

Əlbəttə ki, büdcə parametrləri də hər bir ölkənin iqtisadi potensialını əks etdirir: həm parametrlər, həm dinamika. Bu ilin büdcəsi rekord səviyyədədir. Büdcə xərcləri 41 milyard manatdan çoxdur. İcmal büdcə isə 48 milyard manatı ötüb. Yəni, Azərbaycan tarixində bu qədər böyük büdcə olmayıb. Bütün bu amilləri sadalayaraq bir daha göstərmək istəyirəm ki, biz yalnız daxili resurslar hesabına, şəffaflıq, idarəetmə və düzgün iqtisadi siyasət nəticəsində bu nəticələrə çatmışıq. Mən dəfələrlə bildirmişdim və artıq hesab edirəm ki, bunu hər kəs görür, hər bir ölkənin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır. Yəni, iqtisadi cəhətdən, maliyyə məsələləri cəhətindən əgər heç kimdən asılı deyilsənsə, sən müstəqil siyasət apara bilərsən. Ona görə bütövlükdə, əlbəttə ki, bir çox digər parametrlər var. Amma əsas iqtisadi göstəricilər bundan ibarətdir. Təbii ki, bu, bizə imkan verir ki, sosial proqramları daha fəal icra edək.

Bildiyiniz kimi, bu il yanvarın birindən minimum əməkhaqqı 55 manat artıb və 400 manata çatıb. Minimum pensiya 40 manat artıb və 320 manata çatıb. Orta hesabla artım 14-15 faizdir. Bu qədər böyük sərmayə qoyan və Qarabağın bərpası kimi qarşımızda bu qədər böyük problemi olan ölkədə bu sahəyə də bu diqqəti yetirmək, əlbəttə ki, bizim siyasətimizin, necə deyərlər, mahiyyətini göstərir. Yəni, Azərbaycan vətəndaşları ildən-ilə daha yaxşı yaşamalıdırlar. Əgər biz bu artımı inflyasiyanın dərəcəsi ilə müqayisə etsək, - hansı ki, keçən il 2 faizdən bir qədər çox idi, - yəni, bu artım məhz az müdafiə olunan təbəqə üçün dövlət tərəfindən növbəti yardımdır. Hər şey cəmiyyətdə də, siyasətdə də, ailədə də ədalətli olmalıdır və sosial ədalət prinsipləri həmişə bizim üçün vacib olub. İmkan yarandıqca, biz ilk növbədə, bu sahəni də, necə deyərlər, diqqətdə saxlamışıq. Son bir neçə il ərzində dörd sosial paket həyata keçirildi və bu məqsədlər üçün 7 milyard manatdan çox vəsait xərcləndi. Bundan sonra da sosial və iqtisadi inkişaf yanbayan gedəcək. İqtisadi imkanlar artdıqca biz daim sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərəcəyik.

AnewZ Televiziyasından Qay Şoun: Sualım COP29 ilə bağlıdır. Tədbir çərçivəsində nailiyyətlər haqqında fikirlərinizi öyrənmək istərdik. Habelə cari və növbəti ildə irəliləyişi təmin etmək üçün hansı addımlar atılmalıdır?

Prezident İlham Əliyev: Bəli, bizim üçün COP29 böyük bir çağırış və böyük imkan idi. Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi. Əlbəttə, biz tam dərk edirdik ki, Azərbaycan istixana qazlarının emissiyası baxımından o qədər də böyük paya sahib deyil və bu işdə dünyanın bir araya gəlməsində mühüm rol oynaya bilməz. Lakin hesab etdik ki, beynəlxalq təşkilatlarda fəaliyyət təcrübəsi və şaxələndirilmiş xarici siyasət bizə körpülər qurmaqda yardımçı olacaq.

Beləliklə, biz 2023-cü ilin dekabrında, COP29-a ev sahibliyi etmək imkanını əldə edən kimi bu mövzunun mahiyyəti ilə daha dərindən məşğul olmağa başladıq. Səmimi desəm, buna qədər biz prosesdə o qədər də fəal iştirak etmirdik. Bu işdə uğura nail olmaqda ən böyük maneə Qlobal Cənub və Qlobal Şimal arasında olan etimadsızlıqdır - ətraf mühiti ən çox çirkləndirən ölkələr və bundan əziyyət çəkən ölkələr. Biz disbalansı görürük – iqlim dəyişikliyi nəticəsində bəzi ölkələrin mövcudluğu təhlükə altındadır. Emissiya baxımından onların payı 0.1 faizdir, lakin onların, xüsusilə də kiçik ada dövlətlərinin həyatı və gələcəyi təhlükə altındadır.

Yəni, biz hazırlıq işlərinə başladıq və Qlobal Cənub çərçivəsində olduqca fəal iş apardıq. Biz 4 il ərzində Qoşulmama Hərəkatında sədrlik etmişik. Bu, böyük uğur idi və üzv dövlətlərin yekdil qərarı ilə bizim sədrliyimiz daha bir il uzadıldı. Eyni zamanda, Avropa siyasətində fəal iştirak edən bir ölkə kimi Azərbaycan Avropa İttifaqının 10 üzv ölkəsi ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb və qəbul edib. Biz hesab etdik ki, bu iş uğurla nəticələnə bilər. Biz dərhal iki istiqamətdə işə başladıq - hazırlıq və məzmun. Hər iki istiqamətdə çoxsaylı çətinliklər var idi, lakin yekun nəticə bunun uğur hekayəsi olduğunu sübut etdi.

5

# ŞƏRƏF VƏ QÜRUR TARİXİMİZ!

## 20 YANVAR FACİƏSİNDƏN 35 İL KEÇİR





*20 Yanvar faciəsinin 35 -ci ildönümündə xalqımızın azadlığı uğrunda həlak olan 20 Yanvar faciəsinin günahsız qurbanlarının əziz xatirəsi ehtiramla yad edilmişdir. Anım mərasimində Neftçala Rayon İcra Hakimiyyətinin Başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ziyalılar, din xadimləri, Qarabağ müharibəsi veteranları, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak etmişdir.*

*Mərasimdə Neftçala rayon mərkəzində 20 Yanvar şəhidləri üçün ucaldılan abidə ziyarət olunub, önünə tər qərənfillər düzülüb, şəhidlərinin xatirəsi ehtiramla yad edilib və ruhlarına dualar oxunub.*

*Eyni zamanda Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi, 20 Yanvar hadisələri zamanı şəhid olan hərbi qulluqçuların və şəhid olan mülki vətəndaşların Neftçala rayon Şəhidlər Xiyabanında məzarları ziyarət olunub, gül dəstələri düzülüb və ruhlarına dualar oxunub.*

*Şəhid ailələri ilə görüşən RİH-in Başçısı onların qayğıları, çətinlikləri ilə maraqlanıb və müvafiq tapşırıqlar verilib. Şəhid ailələri göstərilən diqqət və qayğıdan razılıq ifadə edərək şəhid ailələri adından Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.*

*Mərasim Neftçala rayon Heydər Əliyev adına Mərkəzdə davam etmişdir.*

*Dəyirmi masa ətrafındakı görüşdən öncə 20 Yanvar hadisələrini özündə əks etdirin Neftçala rayon Dövlət Rəsm Qalereyasının rəsm əsərlərinə baxış keçirilib.Şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.*

*Mərasimdə çıxış edən tarixçi-araşdırmaçı Firdovsi Tağıyev, 20 Yanvar şəhidi Nurəddin Ağahüseynovun həyat yoldaşı Şirmayi Ağahüseynova, "Gündoğar" rayon qəzetinin baş redaktoru Bədirə Niftaliyeva, 20 Yanvar hadisələrinin iştirakçısı, ehtiyatda olan hərbçi Mustafa Əliyev 1990-cı ildə törədilən 20 Yanvar faciəsi, həmçinin daha sonra 25 yanvar 1990-cı il tarxində Neftçala rayonunda baş verən hadisələr haqqında xattirələrini bölüşərək şəhidlərimizin ömür yolunu bir daha ehtiramla yad ediblər.*

*Tədbirdə 20 Yanvar faciəsinin Azərbaycan tarixində müstəqilliyə gedən yolda qətiyyət və mətanət simvolu, xalqın mərdliyinin ifadəsi olduğu bir daha qeyd etdilmiş, bu tarixin unudulmayacağı vurğulanmışdır.*

*Dəyirmi masada "20 Yanvar" faciəsinə həsr olunan "20 Yanvarda doğulanlar" filmi nümayiş etdirilib və saat 12:00-da 20 Yanvar şəhidlərinin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad olunub.*

## TARİX UNUDULMUR, ZAMAN KEÇDİKCƏ YENİDƏN ÖYRƏNİLİR!




Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 1990-cı ilin 20 Yanvar tarixində ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı terror aktı həyata keçirdi.

Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 147 mülki vətəndaş öldürülmüş, 744 nəfər adam yaralanmış, 841 nəfər günahsız həbs edilmişdir. Lakin baş verən faciə nə qədər amansız olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi.

Bu qanlı hadisəyə ilk olaraq öz münasibətini bildirən şəxs Ümummilli lider Heydər Əliyev olmuşdur. Zamanın çətin qadağalarına baxmayaraq, özünün və yaxınlarının həyatını təhlükə qarşısında qoyan Heydər Əliyev 21 yanvar 1990-cı il tarixdə faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilən yığıncaqda çıxış edərək bu hadisəni törədən şəxsləri kəskin şəkildə tənqid edib. Heydər Əliyev bu hadisəni hüquqa, demokratiyaya yad, humanizmə və ölkədə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab etdiyini bildirdi.Bu ağır faciə haqqında ardıcıl öz qətiyyətli fikirlərini qeyd edən xalqımızın ümummilli lideri Heydər Əliyev 7 mart 1991-ci il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında çıxış edərək 20 Yanvar hadisəsini növbəti dəfə çox sərt şəkildə şərh etmişdir:

"...1990-cı il yanvarın 20-də İttifaq dövləti tərəfindən Azərbaycan xalqına qarşı hərbi təcavüz edimişdir. Heç bir əsas olmadan, xəbər vermədən, dövlət qanunlarını kobudcasına pozaraq, Bakı şəhərinə müasir silahlı sovet ordusunun qoşun hissələri yeridilmiş, onlar vəhşilik, qəddarlıq etmiş, nəticədə nahaq qan tökülmüş, yüzlərlə adam həlak olmuş, xəsarət almış, itkin düşmüşdür."

Heydər Əliyev qatillərin aşkarlanması məsələsini yenidən qaldıraraq 20 Yanvar faciəsinə Ali Sovetin sessiyasının qiymət verməli olduğunu bildirmişdir.

Qanlı Yanvar faciəsi ilə bağlı Heydər Əliyev tərəfindən verilən kəskin bəyanat artıq Azərbaycan tarixində yeni siyasi dövrün başlanmasını bildirirdi. Heydər Əliyevin növbəti sərt addımı isə SSRİ Nazirlər Sovetinin partiya təşkilatına ünvanladığı 19 iyul 1991-ci il tarixli ərizəsidir. O, kommunist partiyası sıralarından çıxmasına dair bu ərizəsində kommunist rejiminin ölkəni uçuruma apardığını, SSRİ-nin dağılmasının labüdlüyünü açıq bəyan etmişdir. Heydər Əliyev bu müraciətdə 20 yanvar hadisəsi ilə bağlı qeydlərində bildirirdi: **"Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov. İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid edirdim. Artıq yarım il keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil".**

Beləliklə, 1991-ci ilin iyulunda Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməməsi Heydər Əliyevi çox düşündürən məsələlərdən biri idi. 1990-cı ilin yanvarından sonra hakimiyyətdə olan qüvvələrin bu məsələdə ilk vəzifəsi faciəni təhlil etmək, günahkarları üzə çıxarmaq və dövlət səviyyəsində siyasi-hüquqi qiymət vermək olsa da, respublika əhalisinin təkidli tələblərinə baxmayaraq, bununla bağlı 1993-cü ilə qədər faktiki olaraq heç bir tədbir görülməmişdir. 1990-cı il yanvar ayının 22-də çağırılan Azərbaycan Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş və sonrakı sessiyalarda bu məsələnin müzakirəsini davam etdirməmişdir. Ali Sovetin yanvar hadisələrini tədqiq etməli olan komissiyasının işi başa çatdırılmamış qalmışdır.

1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə Prezident Heydər Əliyev bu barədə deyirdi:

**"Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər Birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".**

Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 1994-cü il tarixli fərmanında deyilirdi: "Xalqımızın tarixinə qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".

Ulu Öndər Heydər Əliyevin tövsiyə və tələbləri ilə 1994 -cü ildə Milli Məclisdə müzakirələrin yekunu olaraq martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə

➡ 4

# TARİX UNUDULMUR, ZAMAN KEÇDİKCƏ YENİDƏN ÖYRƏNİLİR!

3← dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Qərarda 1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycanda vüsət almış milli-azadlıq hərəkatını boğmaq, suveren bir dövlət amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, belə bir yola qədəm qoyan xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Sənəddə Sovet İttifaqı Kommunist Partiyasının, sovet dövləti və hökumətinin, şəxsən Mixail Qorbaçovun Azərbaycana qarşı ağır cinayət törətdikləri, Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Viktor Polyaniçkonun, Vaqif Hüseynovun xalqımıza xəyanət etdikləri siyasi-hüquqi müstəvidə öz əksini tapdı. Azərbaycan SSR Ali Soveti Rəyasət Neyətinin sədri Elmira Qafarovanın, Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsinin birinci katibi Müslüm Məmmədovun bu qanlı faciənin törədilməsində məsuliyyət daşıdıqları və digər məsələlər də sənəddə qeyd olundu.

Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda şəhid olanların xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 31 mart tarixli Fərmanı ilə Qanlı Yanvar faciəsi zamanı həlak olmuş Azərbaycan Respublikası vətəndaşları üçün "20 Yanvar şəhidi" fəxri adı təsis edilmişdir. **"20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.**

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikasının azadlığı, suverenliyi və dövlət müstəqilliyi uğrunda 1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr zamanı həlak olmuş və həmin hadisələr nəticəsində aldığı xəsarətdən (yaralanma, travma, kontuziya) vəfat etmiş 137 nəfər Azərbaycan Respublikasının vətəndaşına "20 Yanvar şəhidi" fəxri adı verilmişdir.

"20 Yanvar şəhidi" fəxri adı haqqında Əsasnamənin 2-ci bəndinə əsasən "20 Yanvar şəhidi" fəxri adının verilməsi haqqında vəsatət qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq sənədlər əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilmişdir.

Sonradan aparılan araşdırmalar, qanunvericiliklə əldə edilmiş sənədlər əsasında daha 10 nəfərin Qanlı Yanvar hadisələri zamanı şəhid olduqları müəyyən edilmişdir. **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vəsatətləri nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 yanvar tarixli Sərəncamı ilə iki nəfər Azərbaycan vətəndaşına, 2003- cü il 27 sentyabr tarixli Fərmanı ilə yenə də iki nəfər Azərbaycan vətəndaşına, 2008-ci il 6 fevral tarixli Sərəncamı ilə isə 6 nəfər Azərbaycan vətəndaşına "20 Yanvar şəhidi" fəxri adı verilmişdir. Beləliklə, 20 Yanvar şəhidlərinin sayı 147 nəfərə çatmışdır.**

Hər il **20 Yanvar faciəsi** respublikamızın hər yerində olduğu kimi Neftçala rayanunda da şəhidlərimizin əziz xatirəsinə ehtiramla yad edilir. 20 Yanvar faciəsindən sonra 25 Yanvar tarixində rayonumuzda baş verən ağrılı hadisələr hər zaman xatırlanır. Bu faciənin qurbanları 20 Yanvar faciəsində rayonumuzun ilk şəhidi Bakı şəhərində **Şəmsəddin Əbilhəsən oğlu Orucov** olmuşdur. Şəmsəddin Orucov yanvarın 23-də Bakı şəhərində evində ikən təcavüzkar rus ordusunun hərbçilərinin açdığı güllə yarasından şəhid olmuşdur.

Yanvar ayının 25 - də axşam saatlarında rus hərbçiləri rayona, xüsusilə, AXC - nin fəallarının toplaşdığı binaya hücüm edərək silahsız insanları döyərək, təhqir edərək həbs edirdilər. Hər tərəfə yağış kimi yağan güllə işdən evinə qayıdan **Nurəddin Aslan oğlu Ağahüseynovu** ağır yaralamış, elə o gün də həyatına son qoymuşdur. Bu ağır, dəhşətli gecədə təhqirlərə etiraz bildirən həmyerlimiz **Əbülfəz Böyükağa oğlu Cəfərovu** dəhşətli əzabla qətlə yetirmişdilər. Lakin baş verən hər bir hadisə, an bu gün əziz şəhidlərimizin xatirəsini ehtiramla yad edən xalqımızın, hadisənin şahidlərin yaddaşından silinmir. Onların cəsurluğu, əyilməzliyi heç zaman unudulmayacaq.

20 Yanvar faciəsindən 35 il keçməsinə baxmayaraq xalqımız şəhidlərimizin əziz xatirəsini heç zaman unutmayacaq. Bu tarix bu gün ərazi bütöblüyümüzün təminatı, Vətən müharibəsində mərd oğulların qanı ilə yazılan qələbəmizin beşinci ildönümündə bir daha vüqarla yad edildi. Ruhları şad olsun Vətən üçün can fəda edən qorxmaz oğulların. Allah səbir versin əzizlərinə.

*"Gündoğar"*

# Azərbaycan Dünya İqtisadi Forumunda

1← **Davos İqtisadi Forumu (DİF) isveçrəli professor Klaus Şvebsin təşəbbüsü ilə 1971-ci ildə yaradılıb. Klaus Şvebs 1971-ci ildə İsveçrənin Davos şəhərində Avropanın aparıcı 450 şirkətinin rəhbərlərini toplayaraq, dünya iqtisadiyyatının perspektivlərini müzakirə etmək və ümumi strategiya hazırlamaq məqsədilə birinci simpoziumu keçirib.**

**1987- ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos Forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. 27-31 yanvar 1995-ci ildə Heydər Əliyev ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib.**

**Prezident İlham Əliyev də bir neçə dəfə Davos İqtisadi Forumunda Azərbaycanı təmsil edib, burada iştirak edən müxtəlif ölkələrin dövlət və hökumət başçıları, iri şirkətlərin rəhbərləri, beynəlxalq təşkilatların səlahiyyətli nümayəndələri ilə görüşüb, danışıqlar aparıb.**

**Azərbaycan Prezidenti İlham Əliyevin Davosda Dünya İqtisadi Forumunda iştirakı və forum çərçivəsində bir sıra mühüm görüşlər keçirməsi ölkəmizin beynəlxalq aləmdə nufuzunun artmasının göstəricisidir, eləcə də iqtisadi inkişafa mühüm təkan verir. İnanırıq ki, aparılan xarici siyasətin düşünülmüş amilləri ölkəmizdə iqtisadi inkişafın daha yüksək pillələri ilə yadda qalacaqdır.**

*"Gündoğar"*

# SƏYYAR GÖRÜŞLƏR: RƏHBƏRLİK- İÇTİMAİYYƏT HƏMRƏYLİYİ







Yanvar ayında öncədən planlaşdırılmış ərazilər üzrə vətəndaşlarla görüşlər davam etmişdir. Cəmiyyətimizə xidmət, əhalinin qarşılaşdığı çətinliklərin aradan qaldırılması, ağsaqqal insanların müəyyən sahələrdə səmərəli təklifləri, digər sosial ehtiyaclarla bağlı müraciətlərin öyrənilməsi səyyar görüşlərin təşkilinin əsas məqsədidir.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun vətəndaşlarla 2025 – ci ildə ilk səyyar görüşü Qırmızıkənd kəndində olmuşdur. Ayın müvafiq günlərində Neftçala şəhəri üzrə, Xol Qaraqaşlı kəndində, II Qaralı kəndlərində vətəndaşlarla görüş keçirilmişdir.

Vətəndaş qəbulunda Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər və kənd sakinləri iştirak edib.

Təşkil olunan görüşlərdə öncə Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların ruhu bir dəqiqəlik sükutla yad olunub.

Çıxış edənlər "Dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır", "Azərbaycanın dayanıqlı inkişafının əsasını vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi təşkil edir", "20 Yanvar faciəsi-Azərbaycan xalqının fədakarlıq, müstəqillik və azadlıq uğrunda mübarizə rəmzidir" mövzularında iştirakçılara məlumat veriblər.

Görüşdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov bildirib ki, 44 günlük Vətən müharibəsinin şanlı Qələbə ilə başa çatması və 24 saatlıq antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün tam bərpası – Şuşada son nöqtənin, Xankəndində isə Zəfər nidasının qoyulması müstəqillik zirvəsində suverenliyin bərqərar olunması ilə yekunlaşdı.

Zəfərlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni geosiyasi reallıqlar fonunda Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi ədalətin bərpa edilməsi konsepsiyasının davamı olaraq məhz məcburi köçkünlərin və qaçqınların Böyük Qayıdışını təmin etmək məqsədilə azad edilmiş ərazilərimizdə böyük quruculuq işlərinə başlanıldı. Və bu gün torpaqlarımızda yüksələn hər bir inkişaf Vətənimizə olan sevgidən, ədalətin bərpasından xəbər verir.

Neftçala RİH-in başçısı Neftçala rayonunda görülən yenidənqurma işləri haqqında görüş iştirakçılarına məlumat verib.

Səyyar qəbul zamanı vətəndaşlar kəndin elektrik təsərrüfatının yenilənməsi, pensiyanın təyin olunması, kadastr planında torpağının yerinin koordinatlara uyğun təyin olunması və digər məsələlər ilə əlaqədar müraciətlərini səsləndiriblər. Vətəndaşların səsləndirdikləri müraciətlər ayrı-ayrılıqda dinlənilib, məsələlər müzakirə olunub və həllinin araşdırılması üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

Məlumat üçün bildiririk ki, vətəndaş məmnunluğunu artırmaq və xidmət keyfiyyətinin yaxşılaşdırılmasının təmin olunması məqsədilə vətəndaşlar Neftçala Rayon İcra Hakimiyyəti ilə həm onlayn, həm də yerində görüşlər üçün yaradılan **"Rəqəmsal İcra Hakimiyyəti"** https://rih.gov.az **portalına daxil olmaqla müraciət imkanı əldə edə bilərlər.**

# GƏNCLƏR NARKOTİKƏ YOX DEYİR!





**Neftçala rayonunda "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyi tərəfindən "Gənclər narkotikə yox deyir" şüarı altında regional konfranslar layihəsi çərçivəsində maarifləndirici tədbiri keçirilib.**

08.01.2024-cü il tarixində Neftçala Rayon İcra Hakimiyyətinin və Şirvan-Salyan Regional Təhsil İdarəsinin Neftçala rayonu üzrə təhsil sektorunun təşkilatçılığı, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Neftçala şəhər M.Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziyada "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyi tərəfindən "Gənclər narkotikə yox deyir" şüarı altında regional konfranslar layihəsi çərçivəsində maarifləndirici tədbir keçirilib.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Regional Şöbəsinin, Neftçala Rayon Prokurorluğunun, Neftçala Rayon Polis Şöbəsinin, "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyinin, Rayon Gənclər və İdman sektorunun, Neftçala RMX PHŞ-nin məsul şəxsləri, müəllimlər, Neftçala Peşə Məktəbi PHŞ-nin tələbələri və məktəblilər iştirak edib.

Tədbirdə ilk olaraq xalqımızın Umummilli lideri, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi zamanı şəhid olan hərbi qulluqçuların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən natiqlər - Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri Sadiq Abbasov, Rayon İcra Hakimiyyəti başçısı aparatının aparıcı məsləhətçisi Esmira Məmmədzadə, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Regional Şöbəsinin əməkdaşı polis polkovnik-leytenantı Aqil Əhmədov, "Gənclərin Anti-Narkomaniya" İctimai Birliyinin sədri Büllur Məmmədova, Neftçala RPŞ-nin rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi, polis polkovnik-leytenantı Valeh Hətəmov, Neftçala rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən, II dərəcəli hüquqşünas İsmayıl Məmmədli, Neftçala RMX PHŞ-də Səhiyyə xidmətlərinin təşkili şöbəsinin müdiri Gülnaz Abadova bu gün ümumbəşəri bəla hesab edilən və doğru olaraq "ağ ölüm" adlandırılan narkomanlıqla mübarizə sahəsində dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər, qəbul edilən Qanun və Dövlət Proqramları və müxtəlif istiqamətlər üzrə narkomaniyaya qarşı mübarizə sahəsində Dövlət siyasətindən ətraflı bəhs edərək, geniş fikir mübadiləsi aparıblar. Çıxışçılar gənclər arasında narkomaniyaya qarşı mübarizə işinin gücləndirilməsi, onların sağlam həyat tərzi ruhunda tərbiyə olunması, son zamanlar gənclərin zərərli vərdişlərə aludəçiliyin artması səbəbləri, sözügedən problemə müasir formada yanaşma tərzi, ailədə yaranan sosial-psixoloji amillərin yeniyetmələrə təsiri, narkomaniya və digər zərərli vərdişlərin insan orqanizminə neqativ təsirləri və yaratdığı sosial problemlər haqqında geniş məlumat vermiş, yeniyetmələri sağlam həyat tərzi keçirməyə, təbiətdən, kitablardan, maraqlı insanlarla ünsiyyətdən zövq almağa, faydalı bilik və bacarıqlar öyrənməyə çağırış etmişlər. Eyni zamanda həm Rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı mübarizə üzrə Komissiya, həm də Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiya tərəfindən mütəmadi olaraq rayonda həyata keçirilən təbliğat, maarifləndirmə işləri barədə geniş məlumat verilib.

Tədbir qarşılıqlı müzakirələrlə davam etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, müvafiq mövzu barədə məlumatlılıq səviyyəsini artırmaq üçün onlara maarifləndirici bukletlər paylanılıb. Sonda xatirə fotosu ilə tədbir yekunlaşıb.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvar ayının 7- də yerli televiziya kanallarına verdiyi müsahibəsindən

2 ←

Hazırlıq bizim üçün böyük çağırış idi, çünki əvvəlki COP-lardan fərqli olaraq hazırlıq üçün 2 il deyil, cəmi 11 ay vaxtımız var idi. Biz stadion və onun ətrafında nəhəng qurğular inşa etməli idik – bu, 200 min kvadratmetrə yaxın qapalı məkan idi. Tədbirin təşkilatçılığı hər kəsdə məmnunluq doğurdu. Bu, təkcə həmin məkanın qurulması demək deyil. Buraya logistika, nəqliyyat, yerləşmə, mehmanxanaların sertifikatlaşdırılması, qonaqların yerləşdirilməsi üçün əlavə yerlərin müəyyən edilməsi daxil idi. Nəzərə alsaq ki, bizdə 197 ölkədən 76 min iştirakçı qeydiyyatdan keçmişdi, bunun üçün kifayət qədər yerimiz yox idi.

Daha bir gözləmədiyimiz problem COP29-u siyasi motivlər səbəbindən boykot etmək cəhdləri idi. Bu, olduqca gözlənilməz idi. Hesab edirəm ki, bu tədbirə ev sahibliyi etmiş heç bir ölkə bu dərəcədə müqavimətə rast gəlməmişdir. Lakin biz bunun da öhdəsindən gələ bildik. Boykot uğursuz oldu. Baxmayaraq ki, siz də qeyd etdiyiniz kimi, bəzi ölkələr, xüsusilə də Fransa əlindən gələni edirdi ki, tədbiri gözdən salsın. Həmkarlarımdan aldığım məlumata görə, Fransa prezidenti şəxsən onlara zəng edərək Bakıya getməməyi tövsiyə edirmiş. Yəni, liderlərin buraya səfər etmələrinin qarşısını almaq üçün hətta belə vasitəyə də əl atılmışdır. Lakin bu da uğursuz oldu. Səksən dövlət və hökumət başçısı Bakıya səfərə gəldi və bu, bir daha Azərbaycanın etibarlı tərəfdaş olduğunu nümayiş etdirdi.

Avropa Komissiyasının Prezidentinin iştirak etməməsinə gəldikdə, bildiyimə görə bu, Avropa Komissiyasının Prezidentinin iştirak etmədiyi ilk COP oldu. Halbuki onun iştirakı bir neçə ay əvvəl artıq təsdiq edilmişdi. Hətta Avropa Komissiyasının təşəbbüsü əsasında Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya liderlərinin iştirakı ilə yaşıl kabel layihəsinə həsr edilmiş xüsusi sessiya da təşkil ediləcəkdi. Gərgin qrafikə baxmayaraq, biz bu sessiya üçün xüsusi vaxt tapa bildik. Buna baxmayaraq, səfər son anda təxirə salındı və bu, gözlənilməz oldu.

Bilirəm ki, COP29-un təşkilat komitəsi Avropa Komissiyası ilə təmas qurdu və qarşı tərəfə bildirdi ki, COP iki həftə ərzində keçirilir və səfər etmək üçün kifayət qədər vaxt var. Yeri gəlmişkən, BMT-nin Baş katibi iki dəfə səfər etdi - tədbirin açılışında və bağlanışında. Ancaq yenə də bu mesaja Avropa Komissiyası tərəfindən əhəmiyyət verilmədi. Əlbəttə bu, COP29-un keçirilməsinə xələl gətirmədi, ancaq COP-a üzv olan tərəf kimi Avropa Komissiyasının iştirak etməməsi çoxsaylı suallar doğurur.

Buna baxmayaraq, təşkilatçılıq baxımından bu, həqiqətən də uğur hekayəsi oldu. Mən bunu bir dəfə qeyd etmişəm ki, bizim cəmi 10 şikayətimiz var idi və onlar dərhal həll edildi.

Nəticələrə gəldikdə, çoxları bunu Bakı Nailiyyəti adlandırır və mən bununla razıyam. Çünki təqribən 10 il ərzində tərəflər karbon bazarı ilə bağlı razılığa gələ bilmirdi və COP-un ilk günlərində artıq uğur əldə edildi – karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılıq əldə edildi. Bu, əhəmiyyətli uğur idi və hər kəs bundan məmnun qaldı. Yəni, on il ərzində razılaşdırıla bilinməyən məsələ Bakıda öz həllini tapdı.

Əlbəttə, COP-un əsas mövzularından biri maliyyələşmə məsələsi idi. Bilirəm ki, 1 trilyon dollar civarında gözləntilər var idi, ancaq bu, tamamilə qeyri-real rəqəm idi. Nailiyyət isə ondan ibarət oldu ki, biz qarşıdan gələn illər üçün nəzərdə tutulmuş məbləği 3 dəfə artıra bildik. Çünki COP29-dan əvvəl razılaşdırılmış rəqəm 100 milyard dollar idi. Burada - Bakıda biz onu 300 milyard dollara çatdırdıq. Yəni, kimsə iddia edirsə ki, bu, uğursuzluq idi, bu, ədalətsizlikdir. Bu, nailiyyət idi və bu, gələcək üçün bir miras oldu.

Bundan başqa da mühüm təşəbbüslər oldu – Azərbaycanın irəli sürdüyü təşəbbüslərin sayı 14 idi. Onların hamısını sadalamaq istəmirəm. Lakin bu, bizim bu məsələyə nə qədər ciddi yanaşdığımızı göstərir. Əlbəttə ki, digər COP tədbirlərində istifadə olunacaq daha bir miras hazırkı, keçmiş və gələcək COP-a ev sahibliyi edən ölkələr arasında "Troyka" mexanizmidir. Bu, bir sinerji yaradır, çünki biz BƏƏ-də əldə edilmiş uğur üzərində uğur qazandıq – mən COP28 BƏƏ Konsensusunu nəzərdə tuturam. Biz onların təcrübəsindən istifadə etdik və bu il Braziliyada keçiriləcək COP zamanı orada BƏƏ və Azərbaycanın əldə etdiyi uğura uğur əlavə olunacaq. Bizim yaşıl gündəliyimiz daha bir mövzudur. Bu, tamamilə qlobal yaşıl keçid və yaşıl gündəliyə uyğundur. Biz artıq bir çox işlər görmüşük və yaxın gələcəkdə nəzərdə tutulmuş çoxsaylı layihələrimiz var.

Beləliklə, mən bunu bir daha çox böyük uğur adlandırardım. Bizim üçün daha bir mühüm amil ölkənin təqdimatı idi. Bizim regionda hələ buna bənzər, bu qədər qonağın iştirak etdiyi ikinci belə tədbir keçirilməyib. Bu, ölkənin təqdimatı idi. Mənim görüşdüyüm və ölkəmizə ilk dəfə səfər edənlərin hamısı gördüklərinin onlarda dərin təəssürat yaratdığını söyləyirdilər. Çünki Azərbaycan haqqında məlumat qıtlığı, ölkəmiz haqqında məqsədyönlü dezinformasiya bir çoxlarının fikirlərinə təsir edir və onlar Azərbaycana gəlib fəal cəmiyyət, savadlı insanlar, peşəkar personal, şəhərin gözəlliyi və cəmiyyətdə ümumi rahatlığı gördükdə, bu, əlbəttə ki, fərqli təəssürat yaradır.

**Beləliklə, biz müxtəlif hədəflərə çatmışıq və bu, Azərbaycanın növbəti uğurudur.**

**İctimai Televiziyadan Nigar Sabirqızı: Cənab Prezident, Siz COP29 barədə danışdınız. Təbii ki, COP29 Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun bir göstəricisi idi.**

→ 6

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvar ayının 7- də yerli televiziya kanallarına verdiyi müsahibəsindən

5 **Elə mənim də sualım Azərbaycanın beynəlxalq aləmdəki yeri ilə bağlı olacaq. Məlumdur ki, ölkəmiz bir sıra beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, həmin təşkilatların üzvüdür və bu proses də davam edir. Bu yaxınlarda - ötən ilin sonu, yəni dekabrın 19-da Azərbaycan daha bir nüfuzlu təşkilat olan D-8-ə üzv qəbul edildi. Bununla da həmin təşkilat demək olar ki, 30 ildən sonra Azərbaycanla öz sırasını genişləndirdi. D-8-ə üzvlük, - Azərbaycanın dünya siyasi sistemində yeri barədə, yəni mən istərdim soruşum, bu, Azərbaycan üçün nə deməkdir, bizim ölkəmiz üçün hansı perspektivlər açır?**

**Prezident İlham Əliyev**: Bu, bizim üçün növbəti uğurlu addım oldu. Çünki Azərbaycanın bu təşkilata qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir. Siz də yaxşı bilirsiniz ki, bu təşkilat 30 ilə yaxın bundan əvvəl yaranmışdı, Türkiyənin təşəbbüsü ilə və səkkiz ölkədən ibarət idi. Bu illər ərzində əlavə üzv qəbul edilməmişdi. Birinci genişlənmə qərarından sonra qəbul edilən üzv Azərbaycan oldu. Əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda, beynəlxalq aləmdə rolumuzu göstərir. D-8 müsəlman ölkələrini birləşdirən ən böyük təşkilatdır. Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır. Əgər biz bu təşkilatın ümumi daxili məhsulunu götürsək, bu, 5 trilyon dollardan çoxdur. Dünyada

60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir. Artıq bütün göstərişlər verilib ki, Azərbaycan bu təşkilatda fəal olsun və öz töhfəsini verə bilsin.

Bizim namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə olmuşdur. Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mən hətta bir dəfə Türkiyədə keçirilmiş D-8 Zirvə görüşündə də qonaq qismində iştirak etmişdim, təqribən 7-8 il bundan əvvəl. Artıq o vaxtdan bəri Azərbaycanın üzvlüyü ilə bağlı məsələ gündəliyə salınmışdı. Amma təbii ki, bütün üzv ölkələr arasında konsensus olmalıydı və nəhayət, bu konsensus əldə edildi.

Biz əlbəttə ki, üzv ölkələrlə daha sıx təmasda olacağıq. Halbuki bu günə qədər də bütün üzv ölkələrlə bizim çox fəal münasibətlərimiz var. Biz bu qərarı yenə də uğurlarımızın qəbul olunması hesab edirik və yenə də deyirəm, bu, sadəcə olaraq, birinci addımdır. Əsas məsələ D-8-in gələcək fəaliyyəti ilə bağlı olacaq. Əlbəttə ki, bizim öz fikirlərimiz, öz gündəliyimiz var. Biz üzv ölkələrlə daim təmasda olaraq öz təkliflərimizi verəcəyik. Düşünürəm ki, D-8-in təşkilat olaraq daha böyük nüfuza malik olması məsələsi tam realdır. Hesab edirəm ki, bir halda, artıq genişlənməyə start verildi, bu, Azərbaycanla məhdudlaşmayacaq və ola bilsin ki, digər ölkələr dəvət ediləcək. Əlbəttə ki, bu məsələlərə konsensus əsasında baxılacaq.

Azərbaycan həmişə müsəlman aləminin dəyərli üzvü olmuşdur. Əgər siz İslam Əməkdaşlıq Təşkilatının rəhbərlərinin açıqlamalarına diqqət yetirsəniz görərsiniz ki, bütün dövrlərdə bu təşkilat, - hansı ki, bütün müsəlman ölkələrini birləşdirir, - Azərbaycanla bağlı çox müsbət fikirdə olub. Bizim İslam həmrəyliyi ilə bağlı addımlarımız, Azərbaycanda İslam dininə olan hörmət, dinlərarası münasibətlər, müsəlman ölkələrinin xətti ilə bir çox tədbirlərin keçirilməsi, o cümlədən IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi. Biz bütün beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də daim müsəlman ölkələrinin maraqlarını müdafiə edirik. Biz bütün təşkilatlarda, əgər hansısa təşkilatda rəhbər vəzifəyə seçim keçirilirsə və orada müsəlman ölkəsinin nümayəndəsi varsa, mütləq avtomatik olaraq, o nümayəndəyə səsimizi veririk. Yəni, bu, mənim göstərişimdir və bir dəfə verilmiş göstəriş, yenə də deyirəm, avtomatik həll olunur. Biz bir çox müsəlman ölkələrinə yardımlar etmişik. Düzdür, biz bununla öyünmürük və edəndə də bunu çox da işıqlandırmırıq. Amma hətta mətbuata gedən məlumat kifayətdir deməyə ki, bu sahədə də çox fəalıq, həm COVID dövründə, həm digər məsələlərdə, Fələstin xalqının üzləşdiyi bu fəlakətlə bağlı yenə də biz ön sıralarda olmuşuq. Suriyada artıq Əsəd rejiminin çökməsindən, yeni hökumətin formalaşmasından sonra Türkiyənin ardınca ikinci ölkə Azərbaycan oldu ki, oraya humanitar yardım göstərdi və biz istənilən digər yardımları göstərməyə hazırıq. Bu məqsədlə Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndə heyəti bu yaxınlarda Suriyaya səfər etmişdir.

Yəni, bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D-8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur. Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır. Bax, dediyim İslam həmrəyliyi ilə bağlı siyasətimiz nəzərə alınıbdır və eyni zamanda, bu təşkilat öz coğrafiyasını da genişləndirir. Artıq D-8 həm Qafqaz, həm də Xəzər regionuna genişlənib və coğrafiyamız nə qədər geniş olsa, imkanlarımız da o qədər geniş olacaq.

İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Hesab edirəm ki, biz bu prosesin başlanğıcındayıq, bir çox boşluqlar yaranmaqdadır və yaranacaq. İkinci Dünya müharibəsindən sonra yaranmış sistem artıq öz potensialını itirib. Bunu bir çox yerlərdə gedən proseslər, münaqişələr, müharibələr və sair hadisələr göstərir. Eyni zamanda, aparıcı Qərb ölkələrində siyasi və mənəvi böhran da göz qabağındadır. Yəni, bu gün Qərbin üzləşdiyi vəziyyəti ən çox tənqid edən Qərbin aparıcı ölkəsinin seçilmiş prezidentidir, haqlı olaraq tənqid edir. Çünki bu sistem artıq tükənib. Bunu mən demirəm. Bunu Amerikanın bir neçə gündən sonra Prezidenti olacaq cənab Tramp deyir. Təbii olaraq, bu boşluqlar daha da genişlənəcək və burada yeni aktorun, yeni, ciddi oyunçunun ciddi gündəliklə daxil olması zərurətdir. Məsələn, biz hesab edirik ki, Türk Dövlətləri Təşkilatı dünya miqyasında ciddi güc mərkəzinə çevrilə bilər. Çünki burada geniş coğrafiya, insan resursları, təbii sərvətlər, nəqliyyat-kommunikasiya xətləri və birlik vardır. Hesab edirəm ki, D-8 də bu boşluğu doldura bilər və bu ölkələrdə yenə də deyirəm, 1 milyarddan çox, bəlkə də 1 milyard 300 milyon insan yaşayır. Müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizi D-8-dədir, əhalinin 60 faizi yenə də D-8 ölkələrindədir. Ona görə bu, bir fürsətdir. Bu fürsəti qaçırmaq olmaz, vaxt itirmək olmaz və biz bu gündəliklə bu təşkilata üzv oluruq. Hesab edirəm ki, bizim fikirlərimiz və təkliflərimiz diqqətlə nəzərə alınacaqdır.

**Nigar Sabirqızı: Çox sağ olun.**

**CBC Televiziyasından Sənan Rzayev: Cənab Prezident, bizim telekanalın yayım dili rus dilidir. İcazənizlə, mən Sizə sualı rusca verərdim.**

**Prezident İlham Əliyev**: Buyurun, əlbəttə.

**Sənan Rzayev: Cənab Prezident, ötən ildən söhbət düşmüşkən, əlamətdar hadisələrdən biri də Qazax rayonunun döərd kəndinin erməni işğalından azad edilməsi oldu. Diqqəti cəlb edən odur ki, bu, belə demək mümkündürsə, İrəvan ilə Bakı arasında hansısa dialoq nəticəsində baş verdi. Bununla yanaşı, hətta gözlənilməz olsa da, həmin sahədə qısa müddət ərzində dövlət sərhədinin müəyyən hissəsinin delimitasiyası və demarkasiyasına nail olundu. Sizin fikrinizi öyrənmək istərdim: necə hesab edirsiniz, buna nail olmağa imkan verən hansı amillər uğurun təminatı oldu? Çünki Ermənistanla, yumşaq desək, bizim qarşılıqlı münasibətlərimiz çox da sadə deyil, burada isə belə bir hadisə baş verdi.**

**Prezident İlham Əliyev**: Deyərdim ki, bu, dialoq deyil, monoloq nəticəsində baş verdi. Belə ki, Ermənistanla onilliklər ərzində dialoqun alınmaması aydındır. Ermənistanın işğalçı siyasəti hər hansı dialoqu nəzərdə tutmurdu, onlar danışıqlar formatından işğalı davam etdirmək üçün pərdə kimi istifadə edirdilər. Bu yaxınlarda mətbuatda çıxan informasiya - məhz Ermənistanın birinci prezidentinin faşist bəyanatı bizim prinsipcə kifayət qədər çoxdan bildiyimizi bir daha təsdiq edir: Ermənistan Azərbaycan ərazilərinin bir santimetrini belə azad etmək istəmirdi. Onlar hesab edirdilər ki, bir müttəfiqdən milyardlarla dollarlıq pulsuz silah, digər ikisindən isə siyasi və mənəvi dəstək aldıqlarına görə özlərini rahat hiss edirlər. Beləliklə, ATƏT-in Minsk qrupunun üç həmsədrinin hamısı mənim cavab verdiyim həmin dövrdə birmənalı olaraq işğalçının tərəfində idi. Mən bunu 2004-cü ildən Minsk qrupu çərçivəsində danışıqlar aparan və bu “üçlüklə” çoxlu sayda görüşlər keçirən insan kimi deyirəm. Ona görə də biz, əlbəttə, bu ərazilərin dialoq yolu ilə qaytarılacağını güman etmirdik. Eləcə də ərazi bütövlüyünün təmin edilməsini.

Düşünürəm ki, Ermənistanı könüllü surətdə, belə desək, könüllü-məcburi şəkildə bu kəndləri qaytarmağa vadar edən bir neçə amil var. Birincisi, Vətən müharibəsi və onun nəticələridir. İkincisi, antiterror əməliyyatı. Zənnimcə, o, erməni rəhbərliyinin onlarla birlikdə Azərbaycana qarşı duracağı ilə bağlı bütün illüziyaları artıq yox etməli idi. Mənim Qazaxın dörd kəndi ilə bağlı son tələbim Ermənistanın baş naziri qarşısında təxminən bir il əvvəl qoyulmuşdu, ötən ilin fevralında. Bu mövzu İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra daim gündəlikdə olub. Buna qədər onun heç bir mənası yox idi. Belə ki, işğalla bağlı əsas məsələ həll olunmamış qalırdı. Amma üçtərəfli Bəyanat imzalandıqdan dərhal sonra, hətta onun imzalanmasına qədər bu mövzu həmişə gündəlikdə durub və hətta deyərdim ki, üçtərəfli Bəyanatın bağlanması şərtlərinin razılaşdırılması zamanı Qazax rayonunun işğal olunmuş kəndləri mövzusu da bizim tərəfimizdən qaldırılmışdı. Amma həmin vaxt müəyyən səbəblər üzündən bunu etmək mümkün olmadı, lakin bilirdik ki, bütün hallarda biz ona nail olacağıq. Bütün ərazilərimiz üzərində tam nəzarəti qaytaracağımızı bildiyimiz kimi. Çünki 2020-ci il 10 noyabr Bəyanatı işğal məsələsini tam həll etmirdi, bizim hamımız bunu yaxşı bilirik. Ona görə də sərt strateji məntiqlə hərəkət edərək, biz ardıcıl, məqsədyönlü şəkildə və təkidlə addımlar atırdıq. Vətən müharibəsi, Azərbaycan ilə Ermənistan arasında şərti sərhədin müəyyən dərəcədə dəqiqləşdirilməsi, antiterror əməliyyatı və Qazax rayonunun dörd kəndi. Onlardan biri hələ Sovet İttifaqı dövründə, 1990-cı ildə işğal olunmuşdu, digər üçü 1992-ci ilin yazında işğal edilmişdi. Beləliklə, ötən ilin fevralında Münxendə Ermənistanın baş naziri ilə görüşdə bu məsələ monoloq şəklində qoyuldu. Şadam ki, biz bu kəndləri qaytarmaq üçün başqa metodlara əl atmalı olmadıq. Zənnimcə, son dörd ilin dərsləri, - hərçənd erməni tərəfindən onlar hələ tam dərk olunmayıb, - nəzərə alınır. Beləliklə, bunu, həmçinin təkcə delimitasiya üzrə deyil, həm də sərhədin demarkasiyası işində yaxşı ilk addım hesab edirəm. Zənnimcə, bu, elə bir nadir hadisədir ki, delimitasiya və demarkasiya demək olar ki, eyni vaxtda həyata keçirilir. Beləliklə, biz bu məsələdə ədalətə nail olduq, ərazilərimizi bərpa etdik. İndi mənim tərəfimdən artıq həmin kəndlərə mütəxəssislərdən ibarət qrup ezam olunub. Orada erməni yaşayış məntəqələrinə yaxınlıq məsələsi və eskalasiya olacağı təqdirdə müəyyən təhdidlər var. Ona görə də mən tapşırıq verdim ki, bu kəndlərin sakinləri üçün mənzil fondunun tikintisi məqsədilə daha çox müdafiə olunan yer seçilsin, onların təhlükəsizliyi təmin edilsin. Çünki belə bir təcavüzkar qonşumuz olduğu üçün biz, ilk növbədə əhalimizin təhlükəsizliyi haqqında düşünməliyik.

Beləliklə, düşünürəm ki, proses maksimum şəffaf oldu, həmçinin ermənilərin yeni himayədarları tərəfindən müsbət qarşılandı, çünki demarkasiya prosesi də aparıldı. Əlbəttə, bu, sərhədin bütün perimetri üzrə dəqiqləşdirmə üçün təkan verməlidir. Delimitasiya və demarkasiya üzrə Ermənistan və Azərbaycan komissiyalarının razılaşdırdığı protokol elə ondan xəbər verir ki, sərhədin dəqiqləşdirilməsi zamanı bir çox amillər – təhlükəsizlik, kommunikasiyalar, yaşayış məntəqələri, tarixi, ekoloji amillər və sair nəzərə alınmalıdır.Yəni, Ermənistan ilə Azərbaycan arasında mövcud olan şərti sərhəd, birincisi, ehkam deyil. Bizim mövqeyimiz həmişə ondan ibarət olub ki, bunun üçün mənim dediyim bir çox bu və ya digər amillərin dəqiqləşdirilməsi tələb olunur. Amma bildiyim kimi, bu ay, hər halda bizim təşəbbüsümüzlə, təklifimizlə delimitasiya məsələsini davam etdirmək üçün delimitasiya üzrə Azərbaycan və Ermənistan komissiyalarının növbəti görüşü olmalıdır. Bizim metodologiya üzrə yanaşmamız var, onu erməni tərəfinə təqdim etmişik. Mənə məruzə etdilər ki, aldığımız şifahi cavab ondan xəbər verir ki, onların tərəfindən xüsusi etiraz yoxdur. Beləliklə, yaşayıb görərik..

7

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvar ayının 7- də yerli televiziya kanallarına verdiyi müsahibəsindən

6

**"REAL" Televiziyasından Vəfa Ağabalayeva: Cənab Prezident, Azərbaycanın müstəqil ölkə kimi güclənməsi onun düşmənlərinin, rəqiblərinin kinini, qəzəbini artırır. Sizin də şərhinizdə biz buna əmin olduq. Qərb dairələrinin həyata keçirdiyi prosesləri, yəqin ki, artıq bu mərhələdə bir növ soyuq müharibə də adlandırmaq olar. Sualım Azərbaycanın yeni dövlət büdcəsi ilə bağlı olacaq. Konkret desəm, söhbət təhlükəsizlik və hərbi məsələlər üçün ayrılan vəsaitlərdən gedir. Elə dünən yenə Ermənistan hərbi birləşmələri Azərbaycan ərazilərini növbəti dəfə atəşə tutdular. Bu, yenə təxribatdır. Bu yeni xərclər və təhlükəsizlik məsələlərinə ayrılan həmin o vəsaitlər necə xidmət edəcək ki, bizim Qərb qonşularımızda yenidən revanşizm meylləri baş qaldırmasın, ələlxüsus konstitusiyaları dəyişdirilsin və qonşularının ərazilərinə iddia etməsinlər?**

**Prezident İlham Əliyev**: Bəli, tamamilə haqlısınız. Mən artıq bildirdim ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir. Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir. Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda, Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu, yeni təhlükə yarada bilər. Eyni zamanda, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq, Azərbaycan bu imkanları verməyəcək. Ona görə Azərbaycanın dövlət büdcəsinin əhəmiyyətli hissəsi hərbi və təhlükəsizlik məsələlərinə xərclənəcək. Mən bunu artıq bir dəfə demişəm: biz Qarabağın və Şərqi Zəngəzurun bərpasına 4 milyard, hərbi və təhlükəsizlik məsələlərinin həlli üçün 8,4 milyard manat vəsait xərcləyirik. Bu, tam fərqli ola bilərdi. Çünki Ermənistanın silahlanma yarışı, bizim də maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə məcbur edir. Mən onu da bildirmişdim ki, Ermənistan silahlanma yarışında bizimlə rəqabət apara bilməz. Ancaq biz burada bir məsələni də nəzərə almalıyıq. Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir. Eyni zamanda, Avropa İttifaqının dırnaqarası sülh fondundan. Dırnaqarası, çünki sülh fondu, əslində, sülh məqsədləri üçün istifadə olunmalıdır. Onların sülh fondu isə silahlanmaya istiqamətləndirilir. Oradan da birinci ödəmə edildi və bizdə olan məlumata görə, bu, son ödəmə deyil.

Narahatedici digər fakt odur ki, keçən ilin aprelində tarixdə ilk dəfə olaraq çox qəribə bir əməkdaşlıq platforması yaradılmışdır - Amerika, Avropa İttifaqı və Ermənistan. Bildiyiniz kimi, Amerikanın Dövlət katibi, Avropa Komissiyasının prezidenti və xarici işlər naziri, Ermənistan baş naziri Brüssel şəhərində bir araya gəlmişdilər, faktiki olaraq yeni bir əməkdaşlıq haqqında razılıq əldə etmişdilər. Bizdə olan məlumata görə, bu görüşdən əvvəl əldə edilmiş razılaşmada hərbi komponent də var idi, ancaq ondan sonra o, rəsmən oradan çıxarıldı, amma de-fakto orada qalır. Bu, əslində, həm Avropa Komissiyasını, həm Amerika Birləşmiş Ştatlarını Azərbaycan-Ermənistan normallaşma prosesindən kənarlaşdırıb. Biz onlara bu barədə artıq bildirmişik. Əgər hər hansı bir tərəf tərəf tutursa, o, dürüst vasitəçi ola bilməz. Məhz buna görə keçən ay Amerika Dövlət katibinin xahişi havada qaldı və Azərbaycan üçtərəfli görüşə razılıq vermədi. O cümlədən, bildiyiniz kimi, Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüsseldə bir çox görüşlər keçirilmişdir. Artıq buna da son qoyuldu. Yəni, biz ikitərəfli danışıqlar formatının tərəfdarıyıq və əlbəttə ki, Azərbaycan bu məsələnin tərəfi kimi öz mövqeyini müdafiə edəcək.

Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik. Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın. Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün bir təhdid mənbəyidir. Müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar. İndi baxın, Ermənistanın birinci prezidentinin irqçi və faşist açıqlamaları nə dərəcədə eybəcərdirsə, bir o qədər də təhlükəlidir. O, etnik təmizləməni bir qürur mənbəyi kimi qələmə verir, azərbaycanlıların öz tarixi dədə-baba torpaqlarından qovulması ilə öyünür. Sadəcə olaraq, bu videomaterial, necə deyərlər, indi ictimailəşdirildi. Ancaq təbii ki, bunu Ermənistanda bilirdilər. Ermənistanın müttəfiqləri, havadarları təbii ki, bilirdilər və bu fikirləri bölüşürdülər. Bizə qarşı 30 illik işğalçılıq siyasəti, sadəcə olaraq, Ermənistan məhsulu deyil, onunla həmrəy olan islamofob, azərbaycanofob, irqçi, ksenofob dairələrin, xarici ölkələrin nümayəndələrinin birgə məhsuludur. Belə bir faşist dövlətlə biz qonşuyuq və faşizm təhlükəsi sovuşmur. **Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik.** Bizim başqa çarəmiz yoxdur. Yenə də 30 illik işğal, xalqımızın əzabları, Xocalı soyqırımı, dağıdılmış, viran qoyulmuş Qarabağ - bütün bunlar bizim gözümüzün qabağındadır və kim zəmanət verə bilər ki, bu, təkrarlanmayacaq, heç kim! Çünki Ermənistanın birinci üç rəhbəri faşist ideologiyasının daşıyıcılarıdır. Ermənistanın indiki rəhbəri, mən demişəm, indi özündən sülh göyərçini düzəltmək istəyir. Amma baxın, görün, onun 2018-2019-cu illərdəki çıxışlarına, onları indi heç kim xatırlatmaq istəmir. Hətta onun Fransadakı dostları da ondan imtina etmək istəmirlər. Yəni, bu ideologiya orada yaşayır və bunun daşıyıcıları, sadəcə olaraq, bugünkü Ermənistan müxalifəti deyil, Ermənistan iqtidarıdır. Bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna tamaşa edəsi deyilik. Ermənistan silahlanmanı dərhal dayandırmalıdır. Ona silah verən Fransa və digər ölkələr o kontraktlara xitam verməlidir, ləğv etməlidir. Artıq Ermənistana göndərilmiş silahlar geri qayıtmalıdır. Bu, bizim şərtimizdir. İndi kim bunu necə istəyir elə də qəbul etsin. Mən sözümü deyirəm, onlar da bilirlər, onların arxasında duranlar da bilirlər ki, əgər biz nəyisə deyiriksə, deməli, artıq bu məsələyə çox ciddi yanaşırıq.

Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək. Çünki bu şərtlərdə hər hansı bir fövqəladə məsələ yoxdur. Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi – bunlarsız sülh müqaviləsi mümkün deyil. Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik. Yəni, mən yenə də Ermənistan tərəfinə məsləhət görərdim ki, hər şeyi yaxşı ölçüb-biçsin, o cümlədən dünyadakı geosiyasi dəyişiklikləri. Onların yaxın dostları siyasi səhnədən biabırçılıqla silinirlər. Bax, dünən xəbər gəldi ki, Ermənistanın və Paşinyanın yaxın dostu cənab Trüdo da vəzifədən getməli oldu. Həmin bu ölkə ki, İkinci Qarabağ müharibəsi dövründə və ondan sonrakı dövrdə qatı anti-Azərbaycan mövqeyində idi, heç Fransadan çox da uzağa getmir. Fransaya gəldikdə, indi orada siyasi səhnədə nələr baş verir? Hər kəs özü görür. Dünən Fransa prezidenti Azərbaycana qarşı yenə də cəfəng ittihamlar irəli sürmüşdü. Görünür ki, cənab Makron Azərbaycansız yaşaya bilmir. Onda hansısa belə bir maniya yaranıb və bütün günahlarını bizim üstümüzə atmaq istəyir. Mən hesab edirəm, əgər biz o qədər güclənmişik ki, Fransanın daxili işlərinə qarışa bilərik və nəyisə dəyişə bilərik, biz, sadəcə olaraq, bununla fəxr edə bilərik. Əslində, bu açıqlama öz acizliyinin etirafıdır. **Özlərini böyük dövlət adlandıran bir prezident, sən demə, uzaqda - Qafqaz bölgəsində yerləşən, 10 milyon əhalisi olan ölkənin əməllərindən əziyyət çəkir.** Halbuki bizim bu Fransanın daxili işləri ilə bağlı heç bir işimiz yoxdur. Sadəcə olaraq, qeyri-normal yanaşma, qeyri-adekvat siyasət buna gətirib çıxarıb. Yəni, Ermənistan bunu çox ciddi ölçüb-biçməlidir. Amerikada da Soros dövrü başa çatıb. Bayden administrasiyası, əslində, Soros idarə üsulu ilə idarə olunurdu. Təsadüfi deyil ki, Baydenin son qərarlarından biri Sorosu Amerikanın ən yüksək mükafatı ilə təltif etməsi idi. Yəni, bu sorosçular faktiki olaraq mövqelərini itirirlər. Ermənistan rəhbərliyi bunu da nəzərə alsın. Nəzərə alsın ki, Yaxın Şərqdə onların yaxın müttəfiqi Əsəd diktaturası artıq tarixin zibilliyinə göndərilib və bu, davam edəcək, ona görə düzgün addım atsın. Biz Azərbaycan olaraq onlar üçün təhlükə mənbəyi deyilik. Biz istəyirik ki, Cənubi Qafqazda sülh olsun, əməkdaşlıq olsun, onlar bizə mane olmasınlar. Onlar Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi fəaliyyət göstərməsinlər. **Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır.** Onlar bunu nə qədər tez başa düşsələr, o qədər də yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Biz Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, **onlar 10 noyabr Bəyanatının müddəalarını yerinə yetirməlidirlər.** Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik? Yəni, onlar bütün bunları nəzərə almalıdırlar. Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın.

**Vüsal Mətləb: Cənab Prezident, indi söylədiyiniz fikirlərin davamı olaraq soruşmaq istəyirəm. Ermənistanın silahlanma yarışı və bəzi ölkələr tərəfindən, bəzi qüvvələr tərəfindən Ermənistanın cidd-cəhdlə silahlandırılması təbii ki, regionun təhlükəsizliyi üçün ciddi təhdid yaradır. Ancaq bizi maraqlandıran, qayğılandıran başqa bir məsələ də var. Bizim Böyük Qayıdış və bərpa-quruculuq məsələsi. Bu proses bizim böyük qayıdışımıza mane olmayacaq ki, ləngiməyəcəyik ki?**

**Prezident İlham Əliyev**: Əlbəttə, müəyyən dərəcədə mane olur. Çünki böyük vəsait hərbi və təhlükəsizlik məsələlərinə ayrılır. Əgər Ermənistanın silahlanma siyasəti olmasaydı, mən deyə bilərəm ki, 8,4 yox, bəlkə də hərbi və təhlükəsizlik məsələləri üçün 4 milyard manat kifayət edərdi, əgər biz yenə də potensial təhlükə ilə üz-üzə qalmasaydıq. Ona görə əlbəttə ki, bu vəsaitin bir hissəsi gedəcəkdi Qarabağın bərpasına, bir hissəsi gedəcəkdi digər bölgələrin inkişafına, bir hissəsi gedəcəkdi sosial proqramlara. Amma buna baxmayaraq, **Qarabağın və Şərqi Zəngəzurun bərpası bizim üçün hərbi məsələlərlə bərabər ən vacib prioritetlərdən biridir.** Bu il ən azı 4 milyard manat ayrılacaq. Amma mən hesab edirəm ki, biz daha çox vəsaiti səfərbər edə bilərik. Biz üç il ərzində 10 yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytara bilmişik və artıq mətbuatda da bu gedib. On mindən çox köçkün artıq evlərlə təmin edilib və orada yaşayır. **Bütövlükdə 30 minə yaxın insan orada yaşayır, müxtəlif vəzifələrdə çalışırlar,** inşaatda, dövlət işlərində və digər sahələrdə.Bu il üçün bizim planlarımızda daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünləri qaytarmaqdır.

8

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvar ayının 7- də yerli televiziya kanallarına verdiyi müsahibəsindən

7

**O şəhər və kəndlərin adları artıq seçilib, layihələr icra edilir.**

Bir çox kəndlərdə, şəhərlərdə indi inşaat işləri gedir və bu ilin sonuna qədər 30-a yaxın yaşayış məntəqəsində keçmiş köçkünlər məskunlaşacaqlar. Biz əsas infrastruktur layihələrini yəqin ki, bir-iki ilə başa çatdıracağıq. Ən çox vəsait bu layihələrə gedir. **Çünki 60 kilometrdən çox tunellər, körpülər, elektrik stansiyaları, su anbarları inşa edilir. Biz artıq orada 30-dan çox su elektrik stansiyasını işə salmışıq, dəmir yolları çəkmişik. Yəni, bütün bunlar əsas maliyyə yükü götürür.** Təqribən 2-3 ildən sonra əsas infrastruktur layihələri başa çatacaq və ondan sonra yaşayış fondunun yaranmasına istiqamətləndiriləcək məbləğ daha böyük olacaq. Amma yenə də əgər biz dünya tarixinə nəzər salsaq görərik ki, **işğaldan və dağıntıdan əziyyət çəkmiş heç bir ölkə öz ərazilərini bu templə və bu keyfiyyətlə bərpa etməyib.** Yəni, biz burada da həm peşəkarlıq, həm də çox ciddi yanaşma göstəririk. Burada sadəcə olaraq, söhbət maliyyə resurslarından getmir, yəni, resurslar ola bilər, amma gərək sənin insan potensialın olsun. Yəni, biz son illər ərzində kadr hazırlığına da böyük investisiyalar qoymuşuq, texniki imkanlarımız da genişdir. Orada aparılan işlərin böyük hissəsi Azərbaycan şirkətləri tərəfindən görülür. İkinci yerdə Türkiyə şirkətləridir. Onlar daha çox tunellər, körpülər, dəmir yolları layihələrində iştirak edirlər. Yəni, bizdə çox ciddi texniki potensial var, kadr potensialı var, maliyyə resurslarımız var və güclü düşünülmüş siyasət var. Onu da bildirməliyəm ki, bütün yaşayış məntəqələrinin layihələndirilməsi və ərsəyə gəlməsi ən yüksək standartlara cavab verir. İndi gedin, istənilən yaşayış yerinə baxın, nə qədər rahat evlər, istər mənzil olsun, istər fərdi ev olsun, bütün infrastruktur, iş yerləri. Artıq iki sənaye parkı fəaliyyət göstərir. Təsəvvür edin, Ağdam şəhərində yaradılmış sənaye parkının məhsulları indi xaricə ixrac edilir. **Şəhər dağılıb, amma burada sənaye müəssisələri artıq fəaliyyət göstərir və xaricə məhsul ixrac edir.**

Mən müharibə başa çatandan dərhal sonra demişəm ki, biz Qarabağı cənnətə çevirəcəyik. Əslində, onsuz da bura öz təbii quruluşuna, gözəlliyinə görə cənnətdir. Amma müasir infrastruktur, yaşayış yerləri, iş yerləri, rahatlıq - bura doğrudan da dünyanın ən gözəl yerlərindən birinə çevriləcək. Bura çox böyük coğrafiyadır. Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda, ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, yaşıl enerji və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir, halbuki bu, bizim bölgüyə görə üç regiondur. Amma, eyni zamanda, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir. Məsələn, biz bu il Naxçıvan və Ordubad şəhərlərinin Baş planlarının hazırlanmasına da başlayırıq. Ondan sonrakı illərdə Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin Baş planlarının hazırlanmasına başlayacağıq. Qarabağ və Şərqi Zəngəzurdakı bütün yaşayış məntəqələri vahid Baş plan əsasında qurulur. Bu, bir nümunə olacaq. Sonra biz bunu ölkəmizin digər bölgələrinə də tətbiq edəcəyik. Yəni, orada həm idarəetmə, həm infrastruktur, həm də yaşıl enerji layihələri bütün ölkəni əhatə edəcək. Bax, bizim planlarımız bundan ibarətdir. Ümumi rəqəmləri gətirməklə kifayətlənirəm. **Amma hesab edirəm ki, Azərbaycan televiziyaları və digər mətbu orqanları orada gedən prosesləri kifayət qədər işıqlandırırlar.** Əlbəttə, istərdim ki, daha da çox işıqlandırsınlar. Çünki orada hər gün nəsə dəyişir, hər gün nəsə tikilir, hər həftə keçmiş köçkünlər oraya qayıdırlar. **Ona görə bizim mətbuat o bölgədə gedən proseslərlə nə qədər çox maraqlansa və bunu işıqlandırsa, o qədər də yaxşı olacaq.**

**Sənan Rzayev: Cənab Prezident, Fransa ilə bağlı dediklərinizin və həmkarlarımın qaldırdıqları mövzunun qismən davamı olaraq soruşmaq istəyirəm. Orada həqiqətən bir az qəribə, təəccüblü şərait yaranır. Yenə də Sizin qeyd etdiyiniz Fransa prezidentinin həmin çıxışı ilə bağlı, əgər qısa desək, belə çıxır ki, Fransanın bütün problemləri həqiqətən də Azərbaycanla bağlıdır. Bu, təəccüb doğurur. Ona görə də mən bir neçə sual vermək istərdim. Birincisi, dövlət başçısı kimi, Siz cari ildə Azərbaycan-Fransa münasibətlərində baş verənləri nəzərə alaraq vəziyyəti necə qiymətləndirirsiniz, biz bu münasibətlərin pisləşməsində müəyyən bir həddə çatmışıq və ya hələ hər şey irəlidədir? Bu, bir məqamdır. İkinci məqam. Sadəcə istəyirəm ki, Siz bunu bir qədər geniş izah edərdiniz. Siz Fransa prezidentinin reaksiyalarından danışdınız. Qəribə səslənsə də, bəlkə Siz bu məsələdə şəxsi amil, Fransa prezidentinin Azərbaycana münasibətdə şəxsi reflekslərini görürsünüz? Çünki bəzən Fransanın bu vəziyyətdən xeyrinin nədən ibarət olduğu o qədər də aydın deyil. Sonuncu sual. Azərbaycan-Fransa münasibətlərinin tarixi qədimdir, yüksəliş və enişlərlə müşayiət olunub. Siz Azərbaycanın müəyyən mənada Fransanın daxili siyasi gündəliyi olduğunu, yəni, fransız siyasətçisinin məhz Azərbaycan haqqında danışdığı fikri ilə razısınız?**

**Prezident İlham Əliyev**: Təəssüf ki, bu, belədir. Sonuncu sualdan başlayım. Əgər fransız siyasi səhnəsində konsensus varsa, həmin konsensus yalnız azərbaycanofobiya zəminində olur. Təəssüf ki, təkcə hazırkı hakimiyyət deyil, hakimiyyətə iddialı olanlar da bir-birindən o qədər də fərqlənmirlər. Hələ Rusiya sülhməramlılarının olduğu dövrdə Qarabağa qanunsuz səfərləri xatırlamaq kifayətdir. Axı, onlar Fransanın indiki prezidentinin rəqibləri idi, Paris meri də, yeri gəlmişkən, o, seçkilərdə namizədliyini irəli sürmüşdü. Parisin daxil olduğu regionun qubernatoru da seçkilərdə prezident Makronun rəqibi idi və bu yaxınlarda qısa müddətdə Baş nazir vəzifəsini tutmuş cənab Barnye də bu məsələdə fərqlənir. Yəni, onlar özlərini göstərməli idilər. Burada məsələnin kökünün, necə deyərlər, nədən ibarət olduğunu demək mənim üçün çətindir, amma yəqin ki, hansısa sintez var. İslamofobiya və prinsipcə ksenofobiya fransız siyasi sinfinin fərqli cəhətləridir. Amma təkcə bunlar deyil, yeri gəlmişkən, antisemitizm də. Bu, hamıya yaxşı məlumdur. Üstəlik, erməni təsiri, erməni lobbisi və hər kəs erməni icmaları qarşısında fərqlənməyə və həm indi, həm də gələcəkdə hansısa dividendlər əldə etməyə çalışır, onlar başa düşürlər ki, hakimiyyətdə qısa müddətdə qalacaqlar, bəzilərində isə bu, ani xarakter daşıyır. Yəni, gələcək üçün dəstək almaq və "mən sizdənəm" demək yəqin ki, həmin amillərdən biridir.

Bir çoxları və zənnimcə, hakim zümrənin rəhbərləri 2020-ci ildə bizim Qələbəmizi özlərinin məğlubiyyəti kimi qəbul etdilər. Hərçənd belə düşünmək üçün heç bir əsas yox idi. Amma nədənsə, siz də dediyiniz kimi, bunu məhz belə şəxsi planda qəbul edirdilər. Mən bunu həm də fransız nümayəndələri ilə öz ünsiyyət təcrübəm əsasında deyirəm. Halbuki mən həmişə onlara izah etməyə çalışırdım ki, bunun sizinlə heç bir əlaqəsi yoxdur. Biz prinsip etibarilə sizə qarşı deyilik və heç bir şey etməmişik. Siz bizim üzərimizə gəldiniz. 44 günlük müharibə zamanı xatırlamıram ki, **neçə dəfə - altı və ya yeddi dəfə azadlıq mübarizəmizi dayandırmaq cəhdləri ilə bağlı Fransa prezidentindən mənə zənglər daxil olurdu. Sonra təhdid cəhdləri, "Dağlıq Qarabağ"ı tanımaqla bağlı təhdidlər.** Münasibətlərimizin artıq ən aşağı səviyyəyə düşdüyü indiki məqamda bu barədə deyə bilərəm, amma mən cavab verdim ki, 2020-ci ilin noyabrından sonra qondarma "Dağlıq Qarabağ"ı tanıyan istənilən ölkə bizdən diplomatik münasibətlərin kəsilməsinə dair nota alacaq. **Mənim cavabım məhz bundan ibarət idi. Qondarma "Dağlıq Qarabağ"ın tanınması mövzusu dərhal gündəlikdən çıxdı. Onlar, necə deyərlər, başqa yolla getdilər, senat, parlament üzərindən tanıdılar, sonra uzun müddət özlərinə bəraət qazandırdılar ki, hakimiyyətin bununla heç bir əlaqəsi yoxdur.** Ümumilikdə, necə deyərlər, köhnə tarixçədir. Ona görə də ikinci - şəxsi amil ola bilər, hərçənd mənim siyasətdə heç vaxt rəğbət və ya qeyri-rəğbətim olmayıb. Mən düşündüklərimi həmişə özümdə saxlamışam və heç vaxt mənfi münasibətimi ona layiq olanlara göstərmək istəməmişəm. Zənnimcə, burada daha bir amil fransız rəhbərliyinin siyasi cəhətdən səriştəsiz olmasıdır. Mənə cənab Makrona qədər Fransanın üç prezidenti ilə işləmək və ünsiyyətdə olmaq nəsib olub və ölkələrimiz arasında münasibətlər həmişə çox uğurla inkişaf edib. Əgər Avropa İttifaqına üzv ölkələri götürsək, yəqin ki, həmin dövrdə - indiki hakimiyyətə qədər onlar ən fəal münasibətlər olub, həm siyasi, həm qarşılıqlı səfərlər, həm iqtisadi, həm də mədəni sahələrdə. **Bizim Fransanın 13 şəhəri ilə qardaşlaşmış münasibətlərimiz olub. Çoxlu sayda mədəni tədbir keçirmişik.**

Amma siyasi səriştəsizlikdən danışdığım zaman, tərcümeyi-hallara baxmaq lazımdır. Prezident Şirakın tərcümeyi-halına, onun dövlət işində, hökumətdə, partiyada təcrübəsinə, Paris kimi şəhərə başçılıq etdiyi illərə nəzər salmaq lazımdır. Dövlət strukturlarında böyük yol qət edən, əsas nazirlərdən biri – bizim meyarlarla müqayisədə Fransada daha geniş funksiyası olan daxili işlər naziri vəzifəsinə yüksəlmiş Prezident Sarkozinin iş təcrübəsi. Yaxud partiyaya rəhbərlik edərək, bütün yolu keçən, prezidentliyə namizəd və prezident olmağı bacaran Prezident Olland. Eyni zamanda, indiki prezidentin tərcümeyi-halına da baxmaq olar, daha da dərinə getmək istəmirəm. Ona görə də zənnimcə, öz rolunu həddindən artıq qiymətləndirmək və ölkəni tamamilə özü ilə eyniləşdirmək baş verməməlidir. Ölkə başqa şeydir, prezidentsə başqadır. Əgər hər hansı ölkə həqiqətən böyükdürsə, prezident də ona bənzəməlidir. Əgər ölkə geridə qalıbsa, prezident isə sanki mütərəqqidirsə, o, ölkəni də həmin səviyyəyə çatdırmalıdır. Ona görə də zənnimcə, bütün bu amillər mövcuddur. Amma bir daha deyirəm, əgər şəxsiyyət amili varsa, onda bu, qətiyyən Azərbaycan tərəfindən başlanmayıb.

Ən aşağı səviyyədən də eniş mümkündürmü? Bunu söyləmək çətindir. Mən prinsipcə heç vaxt danışmadığımız bir məsələni də çatdırmaq istəyirəm, zənnimcə, bu, hər hansı şəkildə böhrandan çıxmağa kömək edəcək. Son bir neçə ay ərzində biz Fransa hökumətinin nümayəndələrindən təmaslar qurulması üçün siqnallar alırdıq, mənim yaddaşımda onların sayı üç və ya dörddür. Müxtəlif şəxslərdən bizim müxtəlif nümayəndələrə müraciətlər daxil olub və həmişə cavab verilib: "Biz hazırıq". Bəli, biz elə bu gün hazırıq, amma heç yerə getməyəcəyik, nə Parisə, nə də Brüsselə. Bizimlə görüşmək lazımdırsa, burada, Bakıda mümkündür. Hər dəfə hansısa bir mərhələ olur, sonra yenidən boşluq, sükunət yaranır.

Bu yaxınlarda belə bir növbəti, verbal diplomatik depeşa daxil oldu: yenə danışmaq və müzakirə aparmaqla bağlı. Yenə də biz hazırıq, bizim onlarla bölüşə bilməyəcəyimiz heç nə yoxdur, onlara qarşı, necə deyərlər, bu ölkəyə münasibətdə heç bir iddiamız yoxdur. Əsas odur ki, bizə toxunmasınlar, bizim işlərimizə qarışmasınlar, Cənubi Qafqazla bağlı məsələlərə müdaxilə etməsinlər. Bu, artıq bizim dəqiq səsləndirdiyimiz tələbdir. Çünki hazırkı fransız hakimiyyətinin müdaxilə etdiyi hər yerdə, birincisi, rüsvayçı şəkildə uğursuzluq baş verir, ikincisi, onlar yalnız intriqa gətirirlər. Yalnız intriqa. Afrikadan danışmağın mənası yoxdur, necə deyərlər, hər şey göz qabağındadır. Cənubi Qafqazda da vəziyyət eynidir. Azərbaycanda uzunmüddətli kontraktları olan bəzi şirkətlər istisna olmaqla, onların iştirakı praktik olaraq sıfra endirilib. Biz həmişə öz öhdəliklərimizə hörmətlə yanaşırıq, ona görə də siyasi problemləri şirkətlərin fəaliyyətinə heç vaxt aid etməmişik. Burada işləyən fransız şirkətləri günahkar deyillər ki, onların belə bir hakimiyyəti var. Gürcüstanda da sabitliyi pozmaq üçün həmin cəhdlər edildi, hər kəsə aydındır və sirr deyil ki, bu hərəkətlər o qədər qeyri-diplomatik və aşkar edilmişdir ki, bunlar belə diplomatik ənənələri olan ölkə üçün təəccüb doğurur. Ermənistan üzərində tam nəzarət də reallıqdır. Amma bu, alınmayacaq. Hər halda, yenə də mən adətən etdiyimdən bir az çox mətləbləri açdım, amma sizin sualınıza cavab vermək baxımından və münasibətlərin daha aşağı səviyyəyə düşməsi ilə bağlı düşünürəm ki, bu yeni informasiya hamı üçün faydalı olacaq.

**Sənan Rzayev: Sağ olun.**

9

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvar ayının 7- də yerli televiziya kanallarına verdiyi müsahibəsindən

8

**Nigar Sabirqızı: Cənab Prezident, mənim növbəti sualım İranla münasibətlərlə bağlı olacaq. Mən düşünürəm ki, bu məsələ ilə bağlı Sizin fikirləriniz hər kəsə maraqlıdır… Mən bilmək istəyirəm, hazırkı Azərbaycan-İran münasibətlərini Siz necə qiymətləndirirsiniz və İranın indiki rəhbərliyindən bundan sonra hansı siyasət gözləyirsiniz?**

**Prezident İlham Əliyev**: Bu barədə danışmaq bir qədər tezdir. Çünki hazırkı İran rəhbərliyi ilə bizim elə ciddi təmaslarımız olmayıb. Hökumət üzvləri arasında müəyyən təmaslar olub. Onlar daha çox iqtisadi və nəqliyyat məsələlərinə aid idi. O məsələlər, hansı ki, prinsipcə bizdə siyasi gündəlikdən ayrıdır və biz heç vaxt bunları qarışdırmamışıq.

... Bizim sərhədimizdə əgər hər hansı bir təlim, hərbi təlim keçirilirsə, biz də Azərbaycan-İran sərhədinin bu tərəfində eynisini etdik. Yəni, göstərdik ki, biz heç kimdən qorxmuruq və haqlı olan tərəf bizik…

**Nigar Sabirqızı: Çox sağ olun.**

**Qay Şoun: Cənab Prezident, Azərbaycan İtaliya, Yunanıstan, Macarıstan və Türkiyə kimi bir çox Avropa ölkələrinə öz qaz təchizatını artırıb. Gələcəkdə Avropa üçün enerji daşıyıcılarının təmin edilməsində Azərbaycanın yardımı ilə bağlı mülahizələrinizi bizimlə bölüşə bilərsinizmi?**

**Prezident İlham Əliyev**: Bəli, qaz ixracımız artır və hazırda, biz, müxtəlif infrastruktur layihələrindən, əsasən, Cənub Qaz Dəhlizi və onun artırılmasından istifadə edərək, qaz təchizatının coğrafiyasını genişləndiririk. Son zamanlar Avropada istismara verilmiş yeni interkonnektorlar vasitəsilə müxtəlif bazarlara çıxışımız mümkündür…

2022-ci ildən bu günə qədər çox köklü dəyişiklik baş verdi, çünki həmin vaxt qaz ixracımız yalnız Gürcüstanı, Türkiyəni, Yunanıstanı və İtaliyanı əhatə edirdi. Yalnız bunları. Sonra biz Bolqarıstan, Macarıstan, Rumıniya, Serbiya, Şimali Makedoniya, Slovakiya və Xorvatiyanı əlavə etdik. Bütün bunlar kifayət qədər qısa müddət ərzində baş verdi. Bir sözlə, ehtiyatlarımız var, çünki onların təsdiqlənmiş həcmi artmaqdadır. Bir neçə il öncə onların həcmi 2.6 trilyon kubmetr təşkil edirdi. Lakin indi, yenicə kəşf edilmiş, o cümlədən gələcəkdə nəzərdə tutulan ehtiyatlarla bu səviyyə daha da artacaq...

**Nigar Sabirqızı: Cənab Prezident, Yaxın Şərqdə baş verənlərlə bağlı Sizin münasibətiniz maraqlıdır…**

**Prezident İlham Əliyev**: Bəli, biz çox şadıq ki, Suriyada dəyişikliklər baş verdi və bu münasibətlə Türkiyə ilə Suriyanın yeni hökuməti arasında mövcud olan əlaqələr, əlbəttə ki, bizi də çox sevindirir. Çünki Suriya Türkiyə ilə həmsərhəd olan ölkədir və hər bir ölkə öz sərhədlərinin kənarında vəziyyəti sabit görmək istəyir... Türkiyənin Suriyanın inkişafındakı rolu, əlbəttə ki, çox əhəmiyyətlidir və mən Əsəd rejiminin çökməsindən sonra Prezident Rəcəb Tayyib Ərdoğana zəng edərək, həm bu münasibətlə bir-birimizi təbrik etmişik, həm də bildirdim ki, biz də Türkiyənin yanında olmağa hazırıq və bunu etməyə də başlamışıq...

İsrail-Fələstin məsələsində də bizim mövqeyimiz dəyişməz olaraq qalır. Biz iki dövlətin yaranmasının, yəni mövcudluğunun həmişə tərəfdarı olmuşuq. Müstəqil Fələstin dövlətinin yaranması bu münaqişəyə son qoyacaq. Hesab edirəm ki, bunu hər kəs başa düşməlidir...

**Vəfa Ağabalayeva: Cənab Prezident, dünyamız dəyişir, şəhərlərimiz dəyişir, təbii ki, idarəetmə sistemi də dəyişir... Sualım Sizin Sərəncamınızla bağlıdır. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) yaradılması nəyə xidmət edir və ümumiyyətlə, bu təsisatdan bizim gözləntilərimiz nədən ibarətdir?**

**Prezident İlham Əliyev**: ...Uzun illər dövlət şirkətləri, əfsuslar olsun ki, təkcə təbii inhisarçı deyil, eyni zamanda, zərərlə işləyən şirkətlər idi. Bunun bir çox səbəbləri var. Əsas səbəb idarəetmədə olan qüsurlar və pozuntular idi. Buna son qoymaq üçün artıq mənim tərəfimdən belə qərar qəbul edildi və bütün şirkətlərdə, - onlar çox deyil, haradasa 10-a yaxın dövlət şirkəti var, - yeni idarəetmə modeli yaradıldı və biz bunun müsbət tərəflərini dərhal görməyə başlamışıq.

...Tariflərə gəldikdə, bir tarif var dəmir yolu, bir tarif var beynəlxalq liman, bir tarif də var gəmiçilik tətbiq edir və bu tariflər arasında uyğunsuzluq var. Yəni, bir çox digər detallar var ki, bu, vahid sistemin yaranmasına ehtiyac yaradıb və biz bunu yaratmışıq və mən əminəm ki, formalaşmaqda olan bu qurum tezliklə, necə deyərlər, öz səmərəliliyini göstərəcək...Bir çox müasir texnologiyalara əsaslanan yeniliklər tətbiq edilir və ediləcək.

**Vüsal Mətləb: ... Yeni dünya nizamının formalaşmasının başlanğıcındayıq. Bilmək istərdik, bu nizamın Cənubi Qafqaza mümkün təsirləri nə ola bilər və Azərbaycan hansı ssenarilərə hazırlaşır?**

**Prezident İlham Əliyev**: Əslində, biz bu prosesin fəal iştirakçısı olmalıyıq. Biz, sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik. Biz öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur və Azərbaycan bu bölgənin aparıcı ölkəsi kimi, əlbəttə ki, məsuliyyət nöqteyi-nəzərindən də xüsusi çəkiyə malikdir. Ona görə yeni nizamı biz ədalətli nizam kimi görürük. Əgər bunu bir sözlə ifadə etmək mümkündürsə, bu, ədalətli olmalıdır və əslində, Azərbaycanın uzun illər apardığı siyasətə də uyğundur. Biz indi belə görürük, yəni suverenlik, müstəqillik, bir-birinin işlərinə qarışmamaq, müxtəlif bəhanələrlə ölkələrin daxili vəziyyətini gərginləşdirməmək...

**Vəfa Ağabalayeva: Cənab Prezident, mövzu ilə bağlı bu sual yaqin ki, yerinə düşəcək deyə, ünvanlamaq istəyirəm...Sizə elə gəlirmi ki, Co Bayden dünyanı elə dəyişib ki, Trampın işi çətin olacaq?**

**Prezident İlham Əliyev**: Ola bilər. Amma, eyni zamanda, cənab Tramp tamamilə yeni gündəliklə hakimiyyətə gəlir və onun birinci dönəmində Amerika-Azərbaycan əlaqələrində hər hansı bir problem yaşanmadı. Əksinə, münasibətlər çox müsbət idi və bir çox istiqamətlər üzrə biz irəliləyişə nail ola bilmişdik. Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, o, Amerika-Azərbaycan münasibətlərini Amerika-Ermənistan münasibətlərinin qurbanına çevirdi...

**Sənan Rzayev: Cənab Prezident, mənim sualım Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərlə bağlıdır… Cari ildə Azərbaycan və Avropa İttifaqı münasibətləri ilə bağlı gözləntiləriniz nədir?**

**Prezident İlham Əliyev**: Avropa Komissiyası ilə münasibətlərimizin necə inkişaf edəcəyini söyləmək çətindir. Amma deməliyəm ki, ötən il məyusluqla dolu bir il oldu. Belə ki, məhz keçən il Avropa İttifaqı normallaşma prosesində birmənalı olaraq Ermənistanın tərəfini tutdu…

İndi nə olacağını bilmirəm. Komissiya yenidir. Hərçənd bəzi personajlar köhnədir. Bütün hallarda bu, yeni komissiyadır. Azərbaycana və onun milli maraqlarına münasibət necə olacaq, bizim münasibət də elə belə də qalacaq… Mən hələ Avropa Parlamentinin rüsvayçı davranışını demirəm. Yeri gəlmişkən, yeni tərkib də köhnəsindən xüsusilə fərqlənmir…

Amma biz normal münasibətlər təklif edirik: gəlin, normal, ikitərəfli əməkdaşlıq edək. Biz sizdən asılı deyilik, sizdən heç nə gözləmirik, sizin ailənizə üzv olmağa can atmırıq, açığını desək, siz heç vaxt müsəlman əhalisi olan ölkəni qəbul etməyəcəksiniz. **Elə isə gəlin, yaxşı qonşular olaq, əməkdaşlıq edək, buyurun, ticarət edək, sataq, alaq, texnologiyalar əldə edək.** Təəssüf ki, bunların bütün fəaliyyəti bizim Avropa İttifaqı ilə proqramların hamısını dayandırmağımıza gətirib çıxardı. Bütün tvininq proqramları dayandırılıb, Avropa İttifaqının leqal olan qrantlarının hamısı dondurulub…

**Nigar Sabirqızı: Cənab Prezident, Siz bir qədər əvvəl bir cümlə işlətdiniz ki, bizim işimizə heç kim qarışa bilməz. Əlbəttə, bu, inkaredilməz bir faktdır ki, Sizin qətiyyətiniz sayəsində Azərbaycan bu gün yalnız regionumuzda yox, bütün dünyada bir gücə çevrilib. Elə Siz də bir qədər əvvəl qeyd etdiyiniz kimi, Makron Azərbaycansız yaşaya bilmir, Azərbaycanı bir güc kimi görür və Fransanın daxili işlərinə qarışmaqda bizi ittiham edir, yaxud bir neçə gün əvvəl məlum təyyarə hadisəsi ilə bağlı Rusiya Prezidentinin Azərbaycandan üzr istəməsi. Bu, ilk dəfə idi ki, Rusiya dövləti digər dövlətdən üzr istəyirdi. Çoxları buna inanmırdı, amma bu, baş verdi və bütün bunlar onun göstəricisidir ki, Azərbaycan güclü dövlətdir, onunla hesablaşmalı olduqlarını anlayırlar, başa düşürlər. Coğrafi cəhətdən kiçik, amma qalib və güclü bir dövlətin Prezidenti olmaq necə hissdir?**

**Prezident İlham Əliyev**: Necə deyim sizə, birincisi, böyük məsuliyyətdir. İlk növbədə, mən öz vəzifəmə bax, belə yanaşıram, hər gün, hər saat, gecə-gündüz. İkincisi, böyük şərəfdir. Əlbəttə ki, mən xüsusilə son vaxtlar çox sevinirəm. Son dörd ildir ki, mənim həyatım tam fərqlidir. Hamımızın həyatı fərqlidir, hamımız tamamilə başqa əhvali-ruhiyyə ilə yaşayırıq, oyanırıq, xaricə gedirik. Qalib ölkənin nümayəndəsi kimi, xüsusilə rəhbəri kimi yaşamaq, işləmək, beynəlxalq təmaslarda olmaq tamamilə fərqli hissdir. Xüsusilə nəzərə alsaq ki, 17 il ərzində biz tam fərqli bir vəziyyətdə idik, haqlı olduğumuza baxmayaraq, bizi haqsız hesab edirdilər...

Bu gün hər yerdə və hər sahədə gedən inkişafın təməlində məhz xoş əhvali-ruhiyyə, xoş ovqat, cəmiyyətimizin rahat yaşaması, özünə əminlik hissləri dayanır. Mən də bilirəm ki, arxamda Azərbaycan xalqı dayanır. Azərbaycan xalqı da bilir ki, mən onun arxasında dayanıram, yəni, bu, xüsusi bir hissdir. ...Yəni, siz necə, mən də elə. Əlbəttə ki, məsuliyyət və qürur hissi. Biz elə ölkədə yaşayırıq ki, doğrudan da ilk növbədə ölkəmizlə, xalqımızla fəxr edə bilərik.

**Nigar Sabirqızı: Çox sağ olun, təşəkkür edirəm.**

**Vəfa Ağabalayeva: Cənab Prezident,… neokolonial siyasətlə bağlı növbəti mərhələdə hədəflərimiz nədən ibarət olacaq və biz bu missiyanın önündə gedəcəyikmi?**

**Prezident İlham Əliyev**: Bəli, bu, davam edəcək. Azərbaycan cəmiyyəti artıq öz mövqeyini ortaya qoyub və Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ildən-ilə genişlənir, böyüyür. Yenə də deyirəm, əgər bu proses müəyyən səbəblər üzündən başlamışdırsa, bu gün bu, artıq həyatımızın bir parçasıdır və xüsusilə bu ərazilərin nümayəndələri ilə görüşmək, onların dilindən problemləri eşitmək, onların gözündə bu həsrəti, bu tükənmiş ümidləri görmək həm ağırdır, həm də ki, çox tanışdır. Çünki biz də uzun illər təxminən eyni vəziyyətdə idik…Bu müstəmləkəçilik praktikası davam edənə qədər biz o xalqların yanında olacağıq…

**Qay Şoun: Cənab Prezident, icazə verin, ingilis dilində bir sual da verim. Təşəkkür edirəm. Siz işini öz nəzarəti altında saxlayan ölkələrin dəyəri haqqında danışdınız. Gələcəkdə, xarici siyasət baxımından, Tramp administrasiyasının görəcəyi işlər barədə bizdə də bəzi məlumatlar var. Necə düşünürsünüz, qloballaşma, başa düşdüyümüz kimi, artıq son günlərini yaşamırmı?**

**Prezident İlham Əliyev**: Düşünürəm ki, hətta ondan əvvəl bu, baş verib. Əgər xatırlayırsınızsa, son illər qloballaşma haqqında o qədər də çox eşitmirik. Ola bilər ki, bu, 10, yaxud 15 il əvvəl bir tendensiya olub, lakin o, alınmadı. Çünki bir çox ölkə ona qarşı çıxdı. Onun nə məna daşıdığı da bir çox ölkə üçün aydın deyildi. Qloballaşma daha çox ticarətə, yoxsa bütün məsələlərə - əgər belə ifadə etmək olarsa - eyni gözlə baxmaq idi? Bir sözlə, biz buna hər zaman qarşı çıxmışıq və hətta qloballaşma Qərbin siyasətində əsas tendensiya sayıldığı vaxtlarda aydın şəkildə çıxış etmişik. Hətta Prezident Tramp seçilməzdən əvvəl həmin məsələ müəyyən dərəcədə gündəlikdə əsas yer tutmurdu. Bununla belə, əminəm ki, o, alınmadığı üçün tamamilə aradan qalxacaq. Bir çox insan heç onun nə məna daşıdığını belə bilmir. Yəni, o, müdaxilə aləti kimi istifadə olunmuş, hökmranlıq platformasının qurulması, gənc nəslin fikrinin dəyişdirilməsinə yönəlmişdir. Çünki qloballaşmanın əsas hədəfi gənc nəsil idi. Bu yanaşma onları dünya sakinlərinə çevirmək, onları mədəniyyəti, milli mənsubiyyəti, milli özünəməxsusluğu, ləyaqəti olmayan insana döndərmək, əlində pult olanların sanki robotuna çevirmək üçün hesablanmışdır. Bir sözlə, əminəm ki, onun vaxtı artıq keçib, bitib.

**Qay Şoun: Təşəkkür edirəm.**

**Vüsal Mətləb: Cənab Prezident, …Siz dəfələrlə qeyd etmisiniz ki, biz bu Qələbəni, bu mövzunu çox istismar edə bilmərik. Bu Qələbə eyforiyası ilə yaşaya bilmərik. İndi görünən odur ki, biz üçüncü missiya ilə üz-üzəyik. Söhbət Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdışından gedir. İndiki şərtlər altında bu perspektivlər nə qədər real görünür?**

**Prezident İlham Əliyev**: Bilirsiniz, o, bizdən asılıdır. Biz nə qədər fəal olsaq, perspektivlər də o qədər ümidverici olacaq. Təbii ki, Qarabağın işğalı dövründə biz bu məsələ ilə fəal məşğul ola bilməzdik. Halbuki hələ 10 il bundan əvvəl mən bu mövzunu artıq siyasi gündəliyə gətirmiş oldum və mənim tövsiyəmlə o vaxt Azərbaycan alimləri elmi əsərlər yaratmağa başlamışlar. İrəvan xanlığı haqqında böyük elmi əsər yaradılmışdır və Qərbi azərbaycanlıların keçmişdəki yaşayışı, orada məskunlaşması, tarixi xəritələrin çap etdirilməsi...

Mən hesab edirəm, yaxşı olardı ki, Ermənistanın baş naziri Qərbi Azərbaycan İcmasının nümayəndələrini qəbul etsin. Bildiyimə görə, onlar İrəvana da getməyə hazırdırlar. Qəbul etsin, onların dilindən onların problemlərini eşitsin, dinləsin onları. Yəni, onlar oradan əsassız qovulmuşlar...Amma bunu hamı bilsin, həm Ermənistan, həm onun arxasında duranlar ki, bu məsələ gündəlikdən çıxmayacaq, o vaxta qədər ki, azərbaycanlılar təhlükəsizlik şəraitində Qərbi Azərbaycana və o cümlədən Qərbi Zəngəzura yerləşəcəklər.

**Vüsal Mətləb: Təşəkkür edirik, cənab Prezident, müsahibəyə görə çox sağ olun.**

**Prezident İlham Əliyev**: Sağ olun, təşəkkür edirəm sizə.

**https://president.az/az/articles/view/67871**

# Kənd təsərrüfatının siyahıyaalınması: Azərbaycanın aqrar sektoruna siyasi baxış

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: *"Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Bu, sosial, iqtisadi sahədir, qeyri-neft sektorunun inkişafı üçün dəstəkdir".***

Kənd təsərrüfatı - ərzaq təhlükəsizliyinin təmin edilməsində, iş yerlərinin yaradılmasında, kənd yerlərinin inkişafında mühüm rol oynayan fundamental iqtisadi sahədir. İqlim dəyişikliyi, əhalinin artımı və ərzaq bazarında rəqabətin artması kimi qlobal çağırışlar fonunda kənd təsərrüfatının dəqiq, aktual və hərtərəfli təhlilinin aparılması günümüzün tələbi kimi ortaya çıxır. Bu istiqamətdə işlərin təşkili üçün ən effektiv vasitələrdən biri kənd təsərrüfatının siyahıyaalınmasının aparılmasıdır.

Kənd təsərrüfatının siyahıyaalınması - ölkədə kənd təsərrüfatının bütün əsas aspektləri üzrə təfsilatı məlumat əldə etmək üçün aparılan kompleks statistik sorğudur. Bu sorğu torpaqdan istifadə vəziyyəti, əkin sahələrinin strukturu, suvarma, mal-qaranın sayı və sürü dövriyyəsi, təsərrüfatların istehsal göstəriciləri, əmək resursları və digər imkanları barədə geniş məlumat almaq fürsətini verir.

Siyahıyaalmanın keçirilməsi təkcə kənd təsərrüfatı sektorunun mövcud vəziyyətini qiymətləndirməyə deyil, həm də onun güclü və zəif tərəflərini görməyə, bu sahədəki tendensiyaları müəyyən etməyə imkan verir. Bu mühüm informasiya mənbəyi dövlət tərəfindən fermerlərə dəstək üçün effektiv strategiya və proqramların işlənib hazırlanmasında, eyni zamanda aqrar sektora cəlb ediləcək investisiyaların istiqamətinin müəyyənləşdirilməsində xüsusi əhəmiyyətə malikdir.

Dünya ölkələrinin təcrübəsində kənd təsərrüfatı siyahıyaalmaları adətən on ildə bir dəfə keçirilir. Nəzərə alsaq ki, sonuncu dəfə keçirilmiş kənd təsərrüfatının siyahıyaalmasından ötən on il ərzində ölkədə kənd təsərrüfatı istehsalçılarının fəaliyyətində, sayında, strukturunda, inzibati ərazi bölgüsündə dəyişikliklər baş vermişdir, bu halda sosial-iqtisadi inkişaf sahəsində çağdaş problemlərin həllinə ünvanlanacaq tədbirlər kənd təsərrüfatı məhsulu istehsalçıları haqqında ətraflı məlumatların toplanması üçün yeni siyahıyaalmanın keçirilməsi zərurətini ortaya qoyur.

Kənd təsərrüfatı siyahıyaalmasından bəhs edərkən bu mühüm statistik tədbirin tarixinə qısa nəzər salmaq məqsədəuyğun olardı. Beləliklə, 19-cu əsrdən başlayan kənd təsərrüfatı siyahıyaalmaları 1835-ci ildə Norveçdə, 1840-cı ildə ABŞ-da, 1846-cı ildə Belçikada, 1852-ci ildə Uruqvayda, 1866-cı ildə Böyük Britaniyada, 1888-ci ildə Argentinada, 1895-ci ildə Macarıstanda, 1896-cı ildə Kanadada, 1897-ci ildə Bolqarıstanda keçirilmişdir. 1905-ci ildə Romada Beynəlxalq Kənd Təsərrüfatı İnstitutunun (IIA) yaradılmasından sonra bir çox dövlətlər bütün dünyada kənd təsərrüfatı siyahıyaalmalarının vahid əsaslarla keçirilməsi barədə razılığa gəldilər. Beləcə 1929-1930-cu illər üçün ilk Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı (WCA) hazırlandı və 60-a yaxın ölkədə tətbiq edildi. Proqramın 1940-cı il üçün nəzərdə tutulan növbəti mərhələsi İkinci Dünya müharibəsinin başlaması səbəbindən tamamlana bilmədi. 1945-ci ildə Beynəlxalq Kənd Təsərrüfatı İnstitutunun əsasında Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) yaradıldı və 1950-ci ildən başlayaraq hər on ildən bir yenilənən vahid Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramının hazırlanması təmin edildi. Hal-hazırda dünya ölkələri tərəfindən tətbiq olunan mövcud Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramının 2020-ci il raundu 10-cu proqramdır və 2016-2025-ci illəri əhatə edir.

Ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə 1921-ci ildə keçirilib. Sonrakı illərdə isə kənd təsərrüfatının ayrı-ayrı sahələrinə dair sorğu və uçotlar reallaşdırılıb. 1932-ci ildən sonra kənd təsərrüfatı sahəsində kollektivləşmə və sovxoz quruculuğu ilə əlaqədar iri təsərrüfatlar meydana gəldiyindən genişmiqyaslı kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsinə ehtiyac qalmayıb. Kolxoz və sovxozlar üzrə kənd təsərrüfatına dair müvafiq statistik məlumatlar bu təsərrüfatların təqdim etdikləri dövlət statistika hesabatlarının əsasında əldə edilib, əhalinin şəxsi yardımçı təsərrüfatları üzrə məlumatlar isə müəyyən seçmə müşahidə və uçot məlumatları əsasında toplanıb.

**Müstəqil Azərbaycan Respublikasının tarixində kənd təsərrüfatının siyahıyaalınması ilk dəfə 2005-ci il iyunun 1-dən 30-dək olan dövrdə keçirilib. Həmin siyahıyaalmanın hazırlanıb keçirilməsi işi Dövlət Statistika Komitəsi və onun yerli orqanları tərəfindən yerinə yetirilib, nəticələr 8 cilddən ibarət olmaqla məcmuələr toplusu şəklində nəşr edilərək məlumat istifadəçilərinə təqdim olunub.**

Aqrar sektorda həyata keçirilən islahatlar və cəlb edilən investisiyalar nəticəsində meydana çıxan yeni iqtisadi şərait kənd təsərrüfatına dair daha geniş və dolğun məlumatların əldə edilməsini zəruri edirdi. Bu məqsədlə də Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 28 dekabr tarixli 357 nömrəli Qərarı qəbul edildi və 2015-ci il iyunun 1-dən 30-dək olan dövrdə Azərbaycanda ikinci dəfə kənd təsərrüfatının siyahıyaalınması keçirildi. Toplanmış məlumatlar əsasında kənd təsərrüfatındakı vəziyyəti hərtərəfli qiymətləndirməyə imkan verən 15 cilddən ibarət məcmuələr nəşr edilərək istifadəçilərə təqdim olundu.

Qeyri neft-qaz sektorunun inkişafı, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalına nail olmaq istiqamətində görülən dövlət dəstəyi tədbirləri, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun inkişaf etdirilməsi, istehsalçıların müvafiq istehsal vasitələri ilə təminatının gücləndirilməsi sonuncu kənd təsərrüfatı siyahıyaalmasından sonrakı dövrdə də davam etdirilmiş, bu sahəyə cəlb edilmiş investisiyaların həcmi artmışdır.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə birbaşa dövlət dəstəyi olaraq subsidiyaların və vergi güzəştlərinin verilməsi, kənd təsərrüfatı təyinatlı əksər maşın və texniki vasitələrin idxal rüsumundan azad olunması kimi alətlərin tətbiqi bu sahədə inkişafa öz bəhrəsini verməkdədir. Son illər ərzində dövlət dəstəyi hesabına regionlarda soyuducu anbarların, müasir taxıl elevatorlarının və digər logistika obyektlərinin qurulması, habelə yol-nəqliyyat infrastrukturunun inkişafı, meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi hesabına suvarma suyu ilə təmin olunan torpaqların əhatəsinin genişlənməsi, gübrə, pestisid ilə təminatın yaxşılaşdırılması fermerlərin bazarlardakı mövqeyini möhkəmləndirmişdir. Aqrar bölmədə həyata keçirilən islahatların informasiya təminatının zənginləşdirilməsi məqsədilə kənd təsərrüfatında baş verən proseslər haqqında aktual məlumatların əldə edilməsini təmin etmək üçün Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması çərçivəsində Azərbaycanda da bu mühüm tədbirin həyata keçirilməsinə zərurət var idi.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 fevral tarixli, 3672 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın 5.1.2.9-cu bəndində 2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının növbəti siyahıyaalınmasının keçirilməsi ilə bağlı tədbir öz əksini tapır.

**Bu Sərəncamın icrası olaraq "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 4 oktyabr tarixli, 357 nömrəli Qərarı ilə ölkə üçün müstəsna əhəmiyyətə malik olan bu tədbirin 2025-ci ilin 15 iyul - 15 avqust tarixlərində keçirilməsi nəzərdə tutulmuşdur.**

Tədbirin mütəşəkkil keçirilməsini təmin etmək məqsədilə Nazirlər Kabinetinin sözügedən qərarı ilə Tədbirlə Planı təsdiq edilmiş, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, digər aidiyyəti təşkilatlara müvafiq tapşırıqlar verilmiş və İstiqamətləndirici Komitə yaradılaraq tərkibi təsdiq edilmişdir.

Siyahıyaalma kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslər tərəfindən siyahıyaalma vərəqələrinin Dövlət Statistika Komitəsinin elektron informasiya sistemində real vaxt rejimində doldurulması yolu ilə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə isə siyahıyaalmaya cəlb ediləcək şəxslər (sayıcılar) tərəfindən planşet tipli kompüterlərdən istifadə olunmaqla sorğu yolu ilə keçiriləcək.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının tövsiyələrini və beynəlxalq təcrübəni, siyahıyaalmanın planşet tipli kompüterlər vasitəsilə keçirilməsinin üstünlüklərini (yekun məlumatların əldə olunmasına 7-8 ay az vaxt tələb olunur, 340-dan artıq kompüter operatorunun 6 ay müddətinə, 73 nəfər siyahıyaalma qrupu rəhbərinin şəhər və rayonlar üzrə nümayəndəsinin 9 ay müddətinə işə qəbul edilməsinə, 1,2 milyon siyahıyaalma vərəqəsinin çap olunmasına ehtiyac qalmır, siyahıyaalma məlumatları birbaşa elektron daşıyıcılara daxil edildiyi üçün operatorların səhv etmə ehtimalı aradan qalxır, yekun məlumatların keyfiyyəti artır və s.), habelə ölkəmizdə İKT-nin tətbiqinin genişləndirilməsi zəruriliyini nəzərə alaraq 2025-ci ildə ölkəmizdə kənd təsərrüfatının siyahıyaalınmasının ilk dəfə olaraq planşet tipli kompüterlərdən istifadə etməklə sorğu yolu ilə (CAPI üsulu: Computer Assisted Personal Interviewing – kompüter vasitəsilə şəxsi müsahibə) keçirilməsi nəzərdə tutulmuşdur.

İlkin hesablamalara görə 1,2 milyondan çox ev təsərrüfatının siyahıyaalma ilə əhatə olunacağı planlaşdırılır. Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş normativlərə uyğun olaraq kənd təsərrüfatı siyahıyaalınmasının keçirilməsi məqsədilə hər 120 təsərrüfata bir nəfər sayıcı olmaqla 10 mindən çox sayıcı və hər 10 sayıcıya 1 nəfər olmaqla mindən çox təlimatçı-nəzarətçinin işə cəlb edilməsi nəzərdə tutulur. Bu zaman həm sayıcı, həm də təlimatçı-nəzarətçi üçün tapşırığın yerinə yetirilməsinə 40 təqvim günü müəyyən edilmişdir.

Siyahıyaalma üzrə işlərin uğurla təşkil edilməsi və onun həyata keçirilməsinin əsas şərtlərindən biri də kənd təsərrüfatı məhsulu istehsalçıları arasında kütləvi maarifləndirmə işlərinin vaxtında və yüksək səviyyədə təşkil olunmasıdır. Əvvəlki siyahıyaalmaların təcrübəsi və beynəlxalq tövsiyələr də göstərir ki, bu mürəkkəb və irihəcmli işin uğurla həyata keçirilməsi istehsalçıların siyahıyaalmanın məqsəd və vəzifələri, onun zəruriliyi, ölkə və əhali üçün əhəmiyyəti, bu prosesdə kənd təsərrüfatı məhsulu istehsalçılarının üzərinə düşən vəzifələr barədə vaxtında məlumatlandırılmasından,

→ 11

# Kənd təsərrüfatının siyahıyaalınması: Azərbaycanın aqrar sektoruna siyasi baxış

10← siyahıyaalmaya cəlb edilən işçilərin peşəkarlığından, habelə siyahıyaalma vərəqəsindəki suallara alınan cavabların keyfiyyətindən çox asılıdır.
2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq vəziyyətinin qiymətləndirilməsi məqsədilə 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. Tədbir rayonun üç inzibati ərazi dairəsi üzrə səkkiz yaşayış məntəqəsində ümumilikdə 1942 təsərrüfatı əhatə etmişdir. Sınaq siyahıyaalma zamanı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının "2020-ci il Ümumdünya kənd təsərrüfatı siyahıyaalınması proqramı"nın tövsiyələri, əvvəlki siyahıyaalmaların təcrübəsi, kənd təsərrüfatının yerli xüsusiyyətləri, aidiyyəti dövlət qurumlarının, beynəlxalq ekspertin rəy və təklifləri nəzərə alınmaqla hazırlanmış siyahıyaalma vərəqəsi və onun doldurulması qaydaları, CAPI (Computer Assisted Personal Interviewing – kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların elektron formada daxil edilməsi üçün metodoloji əsasları və praktiki aspektləri özündə ehtiva edən xüsusi proqram təminatları təcrübi olaraq planşet tipli kompüterlərdə uğurla sınaqdan çıxarıldı. Hazırlıq işləri davam etdirilir.
Ümumilikdə, 2025-ci ildə keçiriləcək kənd təsərrüfatının siyahıyaalınması nəticəsində təsərrüfatların istehsal fəaliyyəti, o cümlədən torpaqlardan istifadə və onların suvarılması vəziyyəti, istifadə edilən toxumların mənbəyi, gübrə və pestisidlərdən istifadə, cins heyvan və quşların sayı, istifadə olunan yemin növləri, akvakultura, kənd təsərrüfatı təyinatlı tikililər, işçi qüvvəsi və s. barədə aktual məlumatların əldə edilməsinə imkan yaranacaqdır. Bütün bunlar müvafiq qərarların qəbul edilməsində mühüm informasiya mənbəyi kimi çıxış etməklə, bu sahədə statistik müşahidə və tədqiqatların, elmi araşdırmaların aparılmasında baza rolunu oynayacaq, eyni zamanda müvafiq statistik məlumatların beynəlxalq müqayisəliliyi təmin ediləcəkdir.

**Şahin MƏNƏFOV**
**Neftçala Rayon Statistika İdarəsinin rəisi**

# Mütaliəni sevənlər üçün: Bizim yazarlar...

## SOLTAN ABBAS



*Bir ömür yaşadın, dupduru ömür,*
*Yarı sevinc ömür, yarı qəm ömür.*
*Söyləyin, söyləyin kimə gərəkdir,*
*Sevincsiz, sevgisiz qupquru ömür...*

**Yanvar ayının 7-si əziz və hörmətli, rayonumuzun ağsaqqal, sevilən şairi Soltan müəllimin doğum günüdür. "Gündoğar" qəzeti daim oxucularının xidmətində olan, yaşadığı ömürdə qələmi ilə cəmiyyətimizə, xalqımıza, milli-mənəvi dəyərlərimizə, bir sözlə insanlığa xidmət edən şairimizi çoxsaylı oxucuları adından təbrik edir, Soltan müəllimə can sağlığı, xoş günlər, yaradıcılıq sevincləri arzu edir.**

Şair Soltan Abbas 1933-cü ildə yanvarın 7-də Neftçala rayonunun Ballıcalı kəndində anadan olub. Burada 1952-ci ildə ibtidai məktəbi, Boyat kəndində yeddiillik, Xıllı rayonunun (indiki Neftçala rayon Xıllı qəsəbəsi) Xıllı kəndində isə orta məktəbi bitirmişdir. 1951–53-cü illərdə əmək fəaliyyətinə kənd kitabxanasının müdiri kimi başlamışdır. 1953–55-ci illərdə Boyat kənd sovetinin katibi və Xıllı rayonu mədəniyyət şöbəsinin inspektoru işləmişdir. 1955–57-ci illərdə Bakı pedaqoji məktəbində təhsil almışdır. 1957–60-cı illərdə Neftçala rayonunun Xıllı qəsəbə orta məktəbində, 1960–73-cü illərdə isə Salyan rayonunun Boyat kənd 8 illik məktəbində müəllimlik etmişdir. 1973–74-cü illərdə "Qələbə" Salyan rayon qəzeti redaksiyasında "Kənd təsərrüfatı" şöbəsinin müdiri vəzifəsində çalışmışdır.
Təhsilini davam etdirən şair H. Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini qiyabi şöbə üzrə bitirdikdən sonra Boyat kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı fənnini tədris etmişdir. 1991–2006-cı illərdə həmin kənddə inzibati ərazi nümayəndəsi olmuşdur. "Xəzər nəğmələri" ədəbi birliyinin rəhbəri olan şair Soltan Abbas "Məmməd Araz" ali ədəbi mükafatı, "Azərbaycan SSR Xalq Maarifi əlaçısı" nişanı ilə təltif olunmuşdur. AYB-nin üzvüdür. Daim oxucuların rəğbətini qazanan Soltan Abbas 20-yə yaxın kitabın müəllifidir. Hazırda doğma kəndində, Neftçala rayon Ballıcallı kəndində yaşayır, təqaüdçüdür.

**Dünya əzəl gündən bir tamaşadır,**
**Həyatda insanı kamal yaşadır.**
**Sevinc də, kədər də ürəyimizdə,**
**Həyat mövcud olan gündən qoşadır.**

**Ömrümün sevgi çağı nə zaman ötdü,**
**Geriyə fırlanmaz pəri ömrümün.**
**Demirəm o günlər noğuldu, qənddi-**
**Şirindi hər dərdi – səri ömrümün.**

**Soltan Abbas**

## ATAMALI TALIBOĞLU



**Dənizə bənzər**

Mənə də hamı tək verilib ömür,
Onu yaşayıram bu dünyada mən.
Yolumda ayrılıq varsa da xoşdur
Buna öyrəşmişəm əzəl günümdən.

Səyyah tək çıxmışam yola çox zaman,
Seyr etmək olubdur arzum hər yeri.
Keçmişəm dərədən, aşmışam dağdan,
Gəzmişəm quş kimi mavilikləri.

Torpağa etibar etdim əzəldən,
Artdı var-dövlətim, duzum, çörəyim.
Zövq aldım həyatda tək bir gözəldən
Oldu quş qanadlı arzum, diləyim.

Çəkilib başımdan hicran buludu,
Qəlbimi hər addım vüsal izləyir.
Sönməyib könlümün alovu, odu
Ölkələr, şəhərlər məni gözləyir.

Dəyməz darıxmağa, vardır hər nəyim,
Saçaqlı günəşim, nurlu ayım var.
Yurdumun qədrini necə bilməyim
Dalğalı dənizim, coşqun çayım var.

Qəlbimdə hələ çox sözüm qalıbdır,
Nə də doymamışam hələ ömürdən.
Bu gözəl həyatda gözüm qalıbdı
Odur ki, hər zaman yollardayam mən.

Bilirəm yolumu gözləyir bahar,
Ömrümü, günümü işıqla bəzər.
Qəlbimdə oyanar təzə arzular
Hər arzu coşmaqda dənizə bənzər.

**Bir əsgərin dilindən**

Əsgərlik yaşımı haqlamışam mən,
Yola düşəcəyəm orduya axşam.
Hərbi paltarımı geyinməmişdən
Atamın yanında əsgər olmuşam.

Görüşür mənimlə dostlar, tanışlar,
Yetən bu gün məni görmək istəyir.
Üzümə tikilən gözlər, baxışlar,
Mənə uğur deyir, yaxşı yol deyir.

Ömrün xoş gününü mən gördüm bu gün,
İndisə keşikdə dayanmışam mən.
Səni qorumağa dayanmaq üçün
Anamdan gəlirəm, gəlirəm, vətən.

**Meşələr**

Bulud örtər üstünü,
Dolar, ağalar meşələr,
Şimşək çaxsa başında
Qəlbu daşar meşələr.
Yarpaqlar töküləndə,
Qarlı qış çəkiləndə
Bahar gəlib güləndə
Çay tək çağlar meşələr.
Neçə rəngdə var donu,
Buz tək sərindir qoynu,
Küləklərin yolunu
Kəsər, bağlar meşələr.
Uşar dumanda, çəndə,
Ancaq düşməz kəməndə,
Çətin gündə, dar gündə
Özün saxlar meşələr.

## İMAMVERDİ ÖLMƏZ



**Ağıllı keçi, nacins canavar**
**(Təmsil)**

Keçi ayrı düşdü öz dəstəsindən
Dərələr keçərək o dağlar aşdı.
Yamanca qorxurdu qurd həmləsindən
O ayaq saxladı, bəzən də çaşdı.
Nəhəng canavarla gəldi üz-üzə,
Titrədi saralan yarpaqlar kimi.
Nəhəng qurd xisləti baxdı göz-gözə,
Seyr etdi yaxından qadir hakimi.

Keçi dedi: Şahım, ali hökmdar,
Xoşdur mənim üçün sənin fərmanın.
Dağın o tayında bol sürülər var,
Tökülsün orada qoy düşmən qanı.
Mən bircə dəriyəm, bir də ki, sümük,
Gərəksiz ovunun faydası varmı?
Ölürəm acından, tamam söküldük,
Mənə də yetməyin bir intizarmı?
Qalx uca ağaca, nələr görürsən?
Qoyun sürüləri hey axın- axın.
Ağzının ləzzətin onda bilərsən
Qoçlar bir kimsəni qoymayır yaxın.
Canavar qəzəblə agaca qalxdı
Dayandı, fırlandı o son zirvədə.
İldırım başladı, şimşəklər çaxdı,
Sürüşdü, dəhşətlə gələrək yerə.
Tapşırdı canını qara torpağa,
Keçi öz mahnısın çalaraq getdi.
Onun igidliyi düşdü sorağa
Keçi əqli ilə xilaca yetdi.

Məhv edib düşməni intiqam aldı,
Qaliblər həmişə qoy belə olsun.
Yaxşı söyləyib müdrik babalar,
"Keçi qədər barı ağlımız olsun".

**Sapı özümüzdən olan...**

Meşələr bəzəkli, yam-yaşıl idi,
Rahatca yaşayıb ömür sürürdü.
Çəkməzdi qüssəni, çəkməzdi dərdi,
Bu yaşıl ağaclar çöllər bəzərdi.
Dəmir peyda oldu sapı ağacdan,
O gəldi meşəyə dəyişdi həyat.
Yaşıllıq qalmadı əzəl büsatdan,
Kəsildi ağaclar, doğrandı heyhat.

Sərildi ağaclar qara torpağa,
Ahu-naləsi yüksəldi göyə.
Bir imdad olmadı gülə - yarpağa
Meşələr məhv olub düzlənsin deyə.

Sapı özümüzdən olan baltanı,
Düşmənlər necə də sipər seçdilər.
Sən mərdi, namərdi yaxından tanı,
Yaşıl ormanları kəsib biçdilər.

Fürsəti verməyək düşmənə, yada,
Canlı baltalardan qorunaq gərək.
Sinəmiz od alıb, düşsək də oda,
Bir daha birləşib yaranaq gərək.

# MÜTALİƏNİ SEVƏNLƏR ÜÇÜN: Bizim yazarlar...

**MÜZƏFFƏR MƏZAHİM**



## ŞƏHİDLƏR XİYABANINDA

Bu lal xiyabandan keçirəm sakit,
Keçirəm fikirli, qüssəli, qəmli.
Müqəddəs şəhidlər bu yerə sakin,
Burdan yaz da keçir payız qədəmli.

Bura gələnləri sükut qarşılar,
Burdan gedənləri yola salan yox.
Bu daş qapıları döyər yağışlar,
Açıb kimliyini xəbər alan yox.

Dünənki gülüşlər, dünənki səslər,
Donub, şəkil kimi hopub daşlara.
Yarımçıq arzular, sonsuz həvəslər,
Pərvanə eşqini çapıb daşlara.

Hələ şəhidlərin yarası qanlı,
Hələ də torpaqda qan ləkəsi var.
Bu dağ üstü "Parkın" başı dumanlı,
Kökündə zəlzələ təhlükəsi var.

Vətənin ucalan başının üstə,
Bu ölüm şimşəyi haradan çaxıb?
Baki, hər qranit daşının üstə,
Nə qədər qərənfil yağışı yağıb.

Oğul qeyrətinə sığınmış torpaq,
Bu gün göz yaşına, al qana təşnə.
Ha sinəyə çırpaq, ha dizə çırpaq,
Düşmən sevinəcək döyüb döşünə.

Şəhid məzarının ağırlığından,
Burda yer inləyir, göy ağı tutub.
Bu yurd zarımayıb sağırlığından,
Bu xalq əyilməyi çoxdan unudub.

Bura and yeridir, inam qibləsi,
Sınaq imtahanı, qeyrət dərsidir.
Burda hakim olub hər ruhun səsi,
Bu haray tarixin ibrət dərsidir.

Bir az asta yeri, asta gəz burda,
Yarası göynədir Ana torpağın.
İçirt göz yaşı da, içirt vüqar da,
Qoyma qəlbi dərddən yana torpağın.

Bu lal xiyabandan keçirəm sakit,
Keçirəm fikirli, qüssəli, qəmli.
Müqəddəs şəhidlər bu yerə sakin,
Burdan yaz da ötür payız qədəmli...

**ZAUR ƏRMUĞAN**



## ŞƏHİD XİYABANI

Bu yurdun qayası, daşı naləli,
Vətən torpağına qan bələndi, qan.
Ağlar gözümüzün yaşı naləli,
Bakının çiynində neçə şəhid can...

İnsan sel-sel axdı o xiyabana,
Qərənfil yağışı karvan boyunca...
Fəryadlar qopardı ağ saçlı ana,
Köksünü ağılar didib oyunca...

Kim qıydı, kim qıydı belə millətə?!
Haqqa qənim olan azğınlar qıydı!
Kim dözər bu zülmə, dərdə, zillətə?!
Bu necə dəhşətdir, bu necə vaydır?!
...Qara bayraq geydi Od yurdu o gün,
Doxsanın İyirmi Yanvarı gəldi.
Yarıldı yer bağrı, göylər büsbütün,
Azadlıq meydanı bir Vətən eldir!..

Tarix sənədinə möhrünü vurdu
Torpağa məhəbbət, millətə sevgi,
Qanıyla, canıyla şəhidlərimiz.
Neçə dəmir səddi, daş səddi yardı
Köksü süngü olan igidlərimiz.

Başımız üstündə şəhid ruhları
Uca bayrağımız, kimliyimizdir!
Şəhidlik zirvəsi millətin varı,
Bizim andımız bu birliyimizdir!

Əbədi ölməzlik bu yerdən keçir.
Məşəltək od olub yananlar bil ki,
Yalnız Vətən üçün bu yolu seçir.

Şəhid Xiyabanı mərdlik heykəli,
Vətən abidəsi, yurd ocağıdır.
Bir varlıq uğrunda bütöv bir eli
Sabaha səsləyən hürr bayrağıdır.

# "MƏKTƏBLİNİN KİTABI" LAYİHƏSİ MARAQLA QARŞILANDI



**Neftçala rayon Heydər Əliyev Mərkəzində məktəblilərdə ədəbiyyata və mütaliəyə maraq yaratmaq məqsədilə həyata keçirilən "Məktəblinin kitabı" adlı layihə uğurla yekunlaşdı. İki mərhələdən ibarət olan layihənin I mərhələsində Mərkəzin rəsmi İnstagram səhifəsindən açıq səsvermə üsulu ilə ən çox səs toplayan 5 şagird, II mərhələsində isə münsiflərin rəyinə əsasən kitablarını ən yaxşı təqdim edən 4 şagird qalib olub. I-VIII sinif şagirdlərinin iştirak etdiyi layihədə qaliblər sertifikat və hədiyyələrlə təltif olunub.**

**Məktəblilərdə mütaliə marağı yaradan, onlarda öz düşüncələrini əsaslandırmaq, kitabın əhəmiyyəti, məzmunu haqqında fikir bildirməklə şagirdlər arasında seçilən məktəbli həm də bu sahədə bir nümunə olaraq həvəsləndirilir, yaşıdlarını da mütaliə etməyə ruhlandırır. Maraqla qarşılanan layihə Neftçala rayon Heydər Əliyev Mərkəzinin həyata keçirdiyi çoxsaylı uğurlu layihələrdən oldu.**

## E L A N

**HÖRMƏTLİ OXUCULAR!**

BİLDİRİLİR Kİ, NEFTÇALA RAYON DÖRDLƏR KƏND SAKİNİ, I QARABAĞ DÖYÜŞLƏRİ VETERANI SADIQOV VÜQAR MƏTLƏB OĞLUNA VERİLMİŞ VETERAN VƏSİQƏSİ İTMİŞDİR. VƏSİQƏNİ TAPAN ŞƏXSDƏN REDAKSİYAMIZLA ƏLAQƏ SAXLAMASI XAHİŞ EDİLİR.




## KİTABSEVƏRLƏRİN NƏZƏRİNƏ

Həmyerlimiz tarixçi-araşdırmaçı Firdovsi Tağıyevin "Neftçala-Aşağı Kürboyunun tarixinə dair" yeni kitabı "Elm və təhsil" nəşriyyatında çap olunmuşdur. Müəllif Firdovsi Tağıyev 1962-ci ildə Neftçala rayon Aşağı Surra kəndində anadan olmuşdur. Orta təhsilini kənd məktəbində başa vurduqdan sonra 1989-cu ildə BDU-nin tarix fakültəsini bitirmişdir. Hal-hazrda Aşağı Surra kənd məktəbində fəaliyyət göstərir. Qabaqcıl təhsil işçisidir. 2005 - 2008 – ci illərdə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin dissertantı kimi akademik Nailə Vəlixanlının rəhbərliyi ilə cənub-şərq bölgəsi tarix-diyarşünaslıq muzeylərinin fəaliyyətinin tariximizin öyrənilməsi və təbliğində rolunu araşdırmış, elmi məqalələri dərc olunmuşdur.

Firdovsi Tağıyev "Aşağı Surra kəndi"(2017), "Surralılar Qarabağ savaşında"(2018) kitablarının müəllifidir. Müəllifin yeni çap olunan "Neftçala-Aşağı Kürboyunun tarixinə dair" kitabı da tarixi araşdırmanın nəticəsi olaraq oxucular üçün maraqlı məlumat mənbəyidir.

Firdovsi müəllimi yeni kitabının çap olunması münasibətilə təbrik edir, can sağlığı, fəaliyyətinin bütün istiqamətlərində və gələcək planlarında uğurlar arzu edirik.

**ABUNƏ OL, BİRLİKDƏ YAŞADAQ!**

**Baş redaktor**
B.H. NİFTALİYEVA

Ünvan:Neftçala şəhəri, H. Əliyev prospekti 38
VÖEN:6500044671
AZ95AIIB33080019446400258164

Qəzet "Gündoğar"ın redaksiyasında yığılıb, səhifələnib, "AZƏRMedia" mətbəəsində çap olunmuşdur. Tiraj:250